

NƏ QƏDƏR Kİ MÜSTƏQİL AZƏRBAYCAN DÖVLƏTİ VAR, AZƏRBAYCAN XALQI VAR, HEYDƏR ƏLİYEV ÜRƏKLƏRDƏ YAŞAYACAQDIR!


VAHİD AZƏRBAYCAN UĞRUNDA!

# iki sahil

www.ikisahil.az / www.ikisahil.tv

GÜNDƏLİK İCTİMAİ-SİYASİ QƏZET

№ 106 (7361) / Cümə, 14 iyun 2019-cu il


## Avropa İttifaqı Azərbaycanla bütün sahələrdə əməkdaşlığa xüsusi diqqət yetirir



Bax: səh. 2

Prezident İlham Əliyev Avropa İttifaqı komissarının başçılıq etdiyi nümayəndə heyətini qəbul edib

### Birinci vitse-prezident Mehriban Əliyeva Bakının Binə qəsəbəsində "Ümid yeri" uşaq sığınacağının yeni binasının açılışında iştirak edib



⇨ Bax: səh. 3

### SOCAR-AMEA əməkdaşlığı çərçivəsində Yüksək Texnologiyalar Parkında müxtəlif təyinatlı sürtkü yağları və digər istehlak məhsulları istehsal olunur



⇨ Bax: səh. 5

### MİLLİ QURTULUŞ GÜNÜ: Müasir Azərbaycan tarixinin dönüş nöqtəsi



⇨ Bax: səh. 4

Bax: səh. 6



### Qurtuluşun fəlsəfəsi

Bax: səh. 9

### UNEC-də Milli Qurtuluş Günü qeyd olunub



Bax: səh. 13



### "SOCAR Karbamid" zavodunun istehsal və ixrac potensialı yüksəlir


7 — "SARSILMAZ QARDAŞLIQ" VƏ SARSILAN ERMƏNİSTAN: hərbi təlimlərdən titrəyən düşmən

10 — Bakı Slavyan Universitetində mediatur

16 — Kremlər bizi günəşdən qoruyurmu?

## Qida Təhlükəsizliyi Agentliyinin işçiləri təltif edilib

Prezident İlham Əliyev Azərbaycan Respublikası Qida Təhlükəsizliyi Agentliyinin işçilərinin təltif edilməsi haqqında Sərəncam imzalayıb.

Sərəncamda qeyd edilir ki, ölkədə qida təhlükəsizliyi sahəsində səmərəli fəaliyyətinə görə Azərbaycan Respublikası Qida Təhlükəsizliyi Agentliyinin aşağıdakı işçiləri təltif edilsinlər:

**"Tərəqqi" medalı ilə**

*Dadaşova Xəyalə Xalıqverdi qızı*
*Əbdüləliyev Qalib Hümmət oğlu*
*Əbdüləzimov Asif Hilal oğlu*
*Kərimov Zaur Rəvvaq oğlu*
*Piriyev Mansur Şahmar oğlu*
*Şərifov Əziz Əşrəf oğlu*

**"Dövlət qulluğunda fərqlənməyə görə" medalı ilə**

*Mərdiyev Fuad Məharət oğlu*
*Salamov Emin Müzəffər oğlu.*

## AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ ZATİ-ALİLƏRİ CƏNAB İLHAM ƏLİYEVƏ

*Möhtərəm İlham Heydər oğlu.*

*İcazə verin, Azərbaycanın milli bayramı - Respublika Günü münasibətilə Sizi Birləşmiş Nüvə Tədqiqatları İnstitutunun (BNTİ) müdiriyyəti və beynəlmiləl kollektivi adından səmimi qəlbdən təbrik edim.*

*Azərbaycan rəhbərliyinin fundamental və tətbiqi fizika sahəsində bizim beynəlxalq hökumətlərarası elmi-tədqiqat təşkilatı ilə qarşılıqlı faydalı əməkdaşlığın inkişaf etdirilməsinə yönəlmiş səylərini yüksək qiymətləndirirəm.*

*Şadam ki, Azərbaycan ilə BNTİ arasında müttəfiqlik əlaqələri, strateji tərəfdaşlıq və konstruktiv qarşılıqlı fəaliyyət daha da möhkəmlənməkdədir. Bu, Azərbaycan alimlərinin bizim institut çərçivəsində aparılan dünya səviyyəli nadir layihələrdə bundan sonra da fəal iştirak etməsinə imkan verəcək.*

*Möhtərəm İlham Heydər oğlu, Sizə möhkəm cansağlığı və gələcək fəaliyyətinizdə uğurlar, Azərbaycan Respublikasının xalqına isə sülh, firavanlıq və rifah diləyirəm.*

*Dərin ehtiram və səmimi hörmətlə,*

**Viktor Matveyev**
Birləşmiş Nüvə Tədqiqatları İnstitutunun direktoru,
Rusiya Elmlər Akademiyasının akademiki

## AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ ZATİ-ALİLƏRİ CƏNAB İLHAM ƏLİYEVƏ

*Zati-aliləri.*

*Azərbaycanın milli bayramı - Respublika Günü münasibətilə Sizi Çili Hökuməti adından və şəxsən öz adımdan səmimi qəlbdən təbrik edirəm.*

*Çili ilə Azərbaycan arasında 1994-cü ildə qurulan səmərəli əməkdaşlıq münasibətləri vaxt ötdükcə xüsusilə beynəlxalq təşkilatlar çərçivəsində beynəlxalq hüquqa hörmət müstəvisində genişlənib və güclənib.*

*Azərbaycan Respublikasının xalqına bir daha sülh və tərəqqi diləklərimi, şəxsən Sizə ən xoş arzularımı çatdırır, Zati-alinizdən ən dərin ehtiramımı qəbul etməyinizi xahiş edirəm.*

*Hörmətlə,*

**Sebastian Pinera Eçenike**
Çili Respublikasının Prezidenti

# Avropa İttifaqı Azərbaycanla bütün sahələrdə əməkdaşlığa xüsusi diqqət yetirir

## PREZİDENT İLHAM ƏLİYEV AVROPA İTTİFAQI KOMİSSARININ BAŞÇILIQ ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİNİ QƏBUL EDİB



**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev iyunun 13-də Avropa İttifaqının Avropa Qonşuluq Siyasəti və Genişlənmə Danışıqları Direktorluğunun komissarı Yohannes Hanın başçılıq etdiyi nümayəndə heyətini qəbul edib.**

AZƏRTAC xəbər verir ki, görüşdə Azərbaycan ilə Avropa İttifaqı arasında əlaqələrin müxtəlif sahələrdə uğurla inkişaf etdiyi qeyd olundu, münasibətlərimizin hazırkı vəziyyəti və perspektivləri müzakirə edildi.

Avropa Qonşuluq Siyasəti və Genişlənmə Danışıqları Direktorluğunun komissarı Yohannes Han bu gün iştirak etdikləri V Azərbaycan-Avropa İttifaqı Biznes Forumuna toxunaraq, buraya xeyli sayda iştirakçının gəlməsini bu tədbirə verilən önəm kimi dəyərləndirdi və Forum çərçivəsində iqtisadiyyatın şaxələndirilməsi ilə bağlı çox səmərəli müzakirələrin aparıldığını qeyd etdi.

Dövlətimizin başçısı Azərbaycan iqtisadiyyatının şaxələndirilməsi ilə bağlı mühüm işlərin görüldüyünü və artıq yaxşı nəticələrin əldə edildiyini bildirdi. Prezident İlham Əliyev müxtəlif sahələrdə, o cümlədən sənaye, kənd təssərüfatı, turizm və digər sahələrdə nailiyyətlər əldə edildiyini vurğulayaraq, bütün bunların ölkənin davamlı iqtisadi inkişafı üçün yaxşı əsas yaratdığını dedi.

Avropa İttifaqının Avropa Qonşuluq Siyasəti və Genişlənmə Danışıqları Direktorluğunun komissarı Yohannes Han Azərbaycanı Avropa İttifaqı üçün aparıcı tərəfdaş ölkələrdən biri kimi qiymətləndirdi və Avropa İttifaqının ölkəmiz ilə bütün sahələrdə əməkdaşlığa xüsusi diqqət yetirdiyini vurğuladı. Qonaq onu da qeyd etdi ki, Azərbaycan ilə Avropa İttifaqı arasında yeni saziş üzrə danışıqların yekunlaşması əməkdaşlığın keyfiyyətcə yeni səviyyəyə yüksəlməsinə ciddi təkan verəcək. O, Azərbaycanın Avropa İttifaqı üçün enerji sahəsində əsas strateji tərəfdaş olduğunu bildirdi və Cənub Qaz Dəhlizi layihəsinin qısa zamanda yekunlaşacağına əminliyini ifadə etdi. Komissar Yohannes Han, həmçinin qeyd etdi ki, Azərbaycan Avropanı geniş Avrasiya məkanı ilə birləşdirən mühüm nəqliyyat dəhlizidir və bu sahədə saziş və layihələrin imzalanması və həyata keçirilməsinin tərəfdarıdır.

Söhbət zamanı Azərbaycan ilə Avropa İttifaqı arasında təhsil sahəsində əməkdaşlığın inkişaf etdirilməsinin də vacibliyi vurğulandı.

Görüşdə Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsi, beynəlxalq və regional təhlükəsizlik məsələləri müzakirə olundu.

# Azərbaycanın Birinci vitse-prezidenti Mehriban Əliyeva 2 nömrəli Uşaq İncəsənət Məktəbindəki şəraitlə tanış olub



İyunun 13-də Azərbaycan Respublikasının Birinci vitse-prezidenti Mehriban Əliyeva Bakının Yasamal rayonunda Vaqif Mustafazadə adına 2 nömrəli Uşaq İncəsənət Məktəbindəki şəraitlə tanış olub.

AZƏRTAC xəbər verir ki, Mədəniyyət naziri Əbülfəs Qarayev Birinci vitse-prezident Mehriban Əliyevaya məktəb haqqında məlumat verdi.

Bildirildi ki, bu təhsil müəssisəsi 1940-cı ildə 1 nömrəli uşaq musiqi məktəbi kimi fəaliyyətə başlayıb. Məktəbə 1985-ci ildə Vaqif Mustafazadənin adı verilib. 1988-ci ildən isə 2 nömrəli uşaq incəsənət məktəbi kimi fəaliyyətini davam etdirib və burada əlavə şöbələr açılıb.

Qeyd edildi ki, Vaqif Mustafazadə adına 2 nömrəli Uşaq İncəsənət Məktəbini bir çox məşhurlar bitirib. Azərbaycanın Xalq artistləri Arif Məlikov, Aqşin Əlizadə, Oqtay Zülfüqarov, Oqtay Rəcəbov, Kamil Cəlilov, Ağaverdi Paşayev və Azərbaycanın mədəniyyətinə böyük töhfələr vermiş bir çox sənətkarlar bu məktəbdə təhsil alıblar.

Hazırda məktəbdə fortepiano, skripka, gitara, klarnet, saksofon, vokal, xanəndə, tar, kamança, qarmon, nağara, rəssamlıq, xoreoqrafiya ixtisasları, nəzəriyyə və tədris köməkçi fənləri ixtisası üzrə 385 şagird təhsil alır. Onların təlim-tərbiyəsi ilə 78 müəllim məşğul olur.



Diqqətə çatdırıldı ki, Azərbaycanın Əməkdar artisti Vaqif Mustafazadə 1949-1956-cı illərdə məktəbin fortepiano şöbəsində təhsil alıb. Bu məktəbin şagirdləri müxtəlif respublika və beynəlxalq müsabiqələrdə, festivallarda uğurla iştirak edərək yüksək nəticələr əldə edirlər. Məktəbin yerləşdiyi bina indiyədək əsaslı təmir edilməyib.

Birinci vitse-prezident Mehriban Əliyeva məktəbdə müvafiq təmir-bərpa işlərinin aparılmasına dair göstəriş verdi.

# Birinci vitse-prezident Mehriban Əliyeva Bakının Binə qəsəbəsində “Ümid yeri” uşaq sığınacağının yeni binasının açılışında iştirak edib

**Azərbaycan Respublikasının Birinci vitse-prezidenti, Heydər Əliyev Fondunun prezidenti Mehriban Əliyeva iyunun 13-də Bakının Xəzər rayonunun Binə qəsəbəsində “Ümid yeri” uşaq sığınacağının yeni inşa olunan binasının açılışında iştirak edib.**





AZƏRTAC xəbər verir ki, “Ümid yeri” uşaq sığınacağının köhnə binası müasir tələblərə cavab vermədiyindən Heydər Əliyev Fondu tərəfindən yeni bina inşa olunub.

Birinci vitse-prezident Mehriban Əliyeva binada yaradılan şəraitlə tanış oldu. Müəssisənin rəhbəri Nigar Mənsimova “Ümid yeri” uşaq sığınacağının fəaliyyəti barədə Mehriban Əliyevaya məlumat verdi.

Qeyd edildi ki, uşaq sığınacağı 1997-ci ildə təsis olunub. Burada 18 yaşınadək şəxslər məskunlaşır. Sığınacaqda qaldıqları müddətdə onlara hüquqi, mənəvi, sosial və tibbi yardımlar edilir, uşaqların cəmiyyətə adaptasiya olunmalarına və təhsil almalarına dəstək göstərilir.

Müəssisədə sığınacaq sakinlərinin zövqlərinin formalaşması, istedad və bacarıqlarının inkişafı məqsədilə müxtəlif sənət sahələri - xalçaçılıq, rəssamlıq, əl işləri üzrə emalatxanalar yaradılıb.

Uşaqların iştirakı ilə yaradılan “Keçə” rəsm əsəri Heydər Əliyev Fondunun prezidentinə hədiyyə edildi.



İkimərtəbəli müəssisənin binası 53 yerlikdir. Yeni bina oğlanlar, qızlar və kiçik yaşlı uşaqlar üçün bölmələrin yaradılmasına imkan verib. Bütün otaqlar müasir avadanlıqla təchiz edilib. Uşaq sığınacağında yataq, sinif otaqları, informatika kabinetləri, sakinlərin asudə vaxtlarını səmərəli keçirmələri üçün istirahət və əyləncə zonaları, yeməkxana yaradılıb.

Sonra Birinci vitse-prezident Mehriban Əliyeva uşaq sığınacağının sakinləri ilə görüşərək onlarla söhbət etdi. On yaşlı Ömər Musayev yeni binada yaradılan şəraitin onların ürəyincə olduğunu söylədi. Dedi ki, burada təhsil almaq, asudə vaxtlarını maraqlı keçirmək üçün bütün imkanlar var. O, görülən işlərə görə sığınacaq sakinlərinin adından Birinci vitse-prezident Mehriban Əliyevaya təşəkkürünü bildirdi. Uşaqların arzuları ilə maraqlanan Heydər Əliyev Fondunun prezidenti sığınacaq sakinlərinin yanına yenə də qonaq gələcəyini dedi. Mehriban Əliyeva qeyd etdi ki, indi bütün lazımi şəraitlə təmin olunan uşaqların əsas vəzifəsi yaxşı oxumaqdır. Müəssisənin balaca sakinləri Birinci vitse-prezidentə musiqiyə, rəsm çəkməyə həvəs göstərdiklərini söylədilər, mahnı ifa etdilər.





Heydər Əliyev Fondu uşaqlarla bağlı müxtəlif layihələr reallaşdırır. Xeyriyyəçiliyi, böyüməkdə olan nəslin hərtərəfli qayğı ilə əhatə olunmasını, müxtəlif humanitar aksiyaların fəaliyyətinin prioritet istiqamətləri kimi müəyyən edən Fond paytaxtdakı uşaq müəssisələrinin sakinləri üçün yaradılan şəraitin daha da yaxşılaşdırılması məqsədilə mühüm layihələrə imza atır. Bu istiqamətdə görülən işlərdən biri də “Ümid yeri” uşaq sığınacağı üçün yeni binanın inşasıdır.

Binanın həyəti abadlaşdırılıb, yaşıllıq zonası salınıb.

Birinci vitse-prezident Mehriban Əliyeva “Ümid yeri” uşaq sığınacağına fəaliyyətində uğurlar arzuladı.

# Yasamal rayonundakı 11 saylı körpələr evi-uşaq bağçasının yeni binasının açılışı olub

## BİRİNCİ VİTSE-PREZİDENT MEHRİBAN ƏLİYEVA AÇILIŞDA İŞTİRAK EDİB

İyunun 13-də Bakının Yasamal rayonundakı 11 saylı körpələr evi-uşaq bağçası üçün Heydər Əliyev Fondunun təşəbbüsü ilə inşa edilən yeni binanın açılışı olub.

AZƏRTAC xəbər verir ki, Azərbaycan Respublikasının Birinci vitse-prezidenti, Heydər Əliyev Fondunun prezidenti Mehriban Əliyeva açılışda iştirak edib.

Məktəbəqədər təhsil ocağında yaradılan şəraitlə tanış olan Birinci vitse-prezident Mehriban Əliyevaya məlumat verildi ki, 2 korpusdan ibarət 11 saylı körpələr evi-uşaq bağçası müasir tələblərə cavab vermədiyindən mövcud 150 yerlik binası sökülüb, onun yerində Heydər Əliyev Fondunun təşəbbüsü ilə müasir tipli 200 yerlik körpələr evi-uşaq bağçası tikilib. Körpələr evi-uşaq bağçasının inşasına 2018-ci ilin mayında başlanılıb. Tikinti işləri yüksək səviyyədə həyata keçirilib.

Bildirildi ki, yeni binada komplektləşdirilmiş qrup otaqları, mətbəx və yeməkxana, idman və musiqi zalları, həmçinin digər otaqlar var. İkimərtəbəli məktəbəqədər təhsil müəssisəsinin otaqları və dəhlizləri uşaqların sevimli nağıl qəhrəmanlarının şəkilləri ilə bəzədilib, qrup otaqları zəruri inventarlarla, mebel dəstləri ilə təchiz edilib. Məktəbəqədər təhsil müəssisəsində 6-sı Azərbaycan, 4-ü isə rusdilli bölmə olmaqla ümumilikdə 10 qrup fəaliyyət göstərəcək. Körpələr evi-uşaq bağçasında bir yaşdan 6 yaşadək 200 uşağın təlim-tərbiyəsi ilə 46 nəfərdən ibarət peşəkar heyət məşğul olacaq.





Gələcəyimiz olan uşaqların təlim-tərbiyəsinin ən yüksək səviyyədə təşkili, onların sağlamlığının qorunması və vətənpərvər, savadlı şəxsiyyətlər kimi yetişmələri istiqamətində Azərbaycan dövləti çox mühüm layihələr həyata keçirir. Bu işlərə Heydər Əliyev Fondunun töhfəsi də olduqca əhəmiyyətlidir.

On bir saylı körpələr evi-uşaq bağçasının yerləşdiyi ərazidə və ətrafda genişmiqyaslı abadlıq-quruculuq işləri görülüb, yaşıllıqlar salınıb, işıqlandırma sistemi quraşdırılıb. Burada balacaların istirahəti üçün oyun və idman avadanlığı da var. Bir sözlə, müəssisədə balacaların vaxtlarını maraqlı və səmərəli keçirmələri üçün hərtərəfli şərait yaradılıb.

# MİLLİ QURTULUŞ GÜNÜ:
# Müasir Azərbaycan tarixinin dönüş nöqtəsi

**Dünən Yeni Azərbaycan Partiyasının qərargahında partiyanın Gənclər Birliyinin təşkilatçılığı ilə 15 iyun - Milli Qurtuluş Gününə həsr olunan tədbir keçirildi.**

Tədbiri giriş sözü ilə açan YAP Səbail rayon təşkilatı Gənclər Birliyinin sədri Riyad Rüstəmli 15 İyun - Milli Qurtuluş Gününün ölkəmizə qazandırdığı uğurlardan bəhs etdi. Bildirdi ki, daim zirvələrə yüksələn, qüdrətli, zəngin Azərbaycan ulu öndər Heydər Əliyevin şah əsəridir. Son 15 ildə Ümummilli Liderin siyasi kursunu uğurla davam etdirən dövlətimizin başçısı İlham Əliyev təkmil islahatları, yeni təşəbbüsləri ilə bu əsəri daha da zənginləşdirir, Azərbaycanı dünya birliyinin fəal üzvünə çevirir.

YAP Gənclər Birliyinin 15 İyun - Milli Qurtuluş Günü münasibətilə hazırladığı, qurtuluşa gedən yolu, eyni zamanda ulu öndər Heydər Əliyevin xalqın təkidli tələbi ilə hakimiyyətə qayıdışının Azərbaycana qazandırdığı uğurları özündə əks etdirən videoçarxın nümayişindən sonra Baş nazirin müavini, YAP Sədrinin müavini-icra katibi Əli Əhmədov bu tarixi gün münasibətilə tədbir iştirakçılarını təbrik edərək bildirdi ki, Milli Qurtuluş Günü müasir Azərbaycan tarixinin dönüş nöqtəsidir: " Azərbaycanın müasir tarixini Milli Qurtuluş Günündən və bu günə səbəb olan ulu öndər Heydər Əliyevin möhtəşəm qayıdışından ayrı təsəvvür etmək mümkün deyil. Şübhəsiz ki, Ümummilli Liderin möhtəşəm qayıdışı olmasaydı və milli qurtuluşumuz baş tutmasaydı, tamam fərqli bir Azərbaycanda yaşamağa məhkum olardıq. Həmin Azərbaycan bu gün bizim üçün dəyərli olan, hər birimizin qürur mənbəyinə çevrilən Azərbaycandan fərqli olacaqdı. Ona görə də biz tam məsuliyyətlə Azərbaycanın müasir tarixinin iki fundamental əsasını qeyd edə bilərik. Bunun biri Azərbaycanın öz dövlət müstəqilliyini yenidən bərpa etməsidirsə, ikincisi, ümummilli lider Heydər Əliyevin tarixi qayıdışı və Onun Azərbaycana bəxş etdiyi Milli Qurtuluş Günüdür."

"1990-cı illərin əvvəlində Azərbaycan dərin siyasi, sosial-iqtisadi böhran keçirirdi, ölkədə xaos, anarxiya baş alıb gedirdi, Azərbaycan məhv olmaq təhlükəsi ilə üz-üzə qalmışdı. Belə bir şəraitdə, xalqımız nicat yolunu ulu öndər Heydər Əliyevin hakimiyyətə qayıdışında görürdü" söyləyən YAP Sədrinin müavini vurğuladı ki, ulu öndər Heydər Əliyev xalqımızı acı tale yaşamaqdan xilas etdi. AXC-Müsavat cütlüyünün cəmi 13 ay davam edən hakimiyyəti Azərbaycanı dövlət müstəqilliyini itirmək, ölkəni bölünmək, xalqı isə müsibətlər yaşamaq taleyi ilə üzbəüz qoydu: "Ölkə xaos, anarxiya, dərəbəylik, özbaşınalıq girdabında boğulurdu. Sözün həqiqi mənasında yaşamaq uğrunda mübarizə gedirdi. Çörək növbələri 1993-cü il Azərbaycanında həyatın ən acı mənzərələrindən birinə çevrilmişdi. İnflyasiya 1600 faizlə ölçülürdü. Milli valyuta sözün əsl mənasında dəyərsiz kağız parçası olmuşdu. İqtisadiyyat bütünlüklə çökmüşdü. Vaxtilə minlərlə insanın çalışdığı fabrik və zavodlar sökülüb dəzgahları metal kimi dəyərdəyməzinə xaricə satılırdı. İş o yerə çatmışdı ki, dəmir yol relsləri, tramvay xətləri, vaxtilə Azərbaycana böyük valyutalar gətirən şərab çənləri daşınıb xaricdə "əridilirdi". Digər heç bir sahədə bacarıq göstərə bilməyən o zamankı hakimiyyətə cəmi bir il kifayət etdi ki, ölkəni bütünlüklə talan etsin."

Ə.Əhmədov onu da əlavə etdi ki, ulu öndər Heydər Əliyevin hakimiyyətə qayıdışı Azərbaycanın müasir tarixinin yeni mərhələsi kimi dəyərləndirilir: "Xaos, anarxiya aradan qaldırıldı, sabitlik təmin edildi, inflyasiya və iqtisadi tənəzzül cilovlandı, islahatlar həyata keçirildi, Azərbaycana firavanlıq gətirən neft strategiyası reallaşdı, nizami ordu yaradıldı, erməni təcavüzü dayandırıldı, separatizmin kökü kəsildi, Azərbaycanın bütövlüyü qorunub saxlanıldı. Çörək növbələri, 1600 faizlik inflyasiya, separatizm, AXC-Müsavat hakimiyyətinin digər əməlləri indiki gənclərə yəqin ki, fantaziya kimi gəlir. Ancaq bütün bunlar yaşadığımız tarixin qaranlıq bir parçasıdır. Daha dəqiq ifadə etsək, bizə yaşadılan bir tarix, bir müsibətdir. Əgər xalq vaxtında o zamankı hakimiyyəti devirməsəydi və siyasət nəhəngi Heydər Əliyev hakimiyyətə gəlməsəydi, Azərbaycan başqa bir tale yaşamağa məhkum olacaqdı. Yalnız Heydər Əliyevin sayəsində, onun müdrikliyi və 2003-cü ildən Prezident İlham Əliyevin həyata keçirdiyi uğurlu siyasət sayəsində Azərbaycan güclü, qüdrətli, firavan, təhlükəsiz dövlət və ölkə kimi tanınır və qəbul olunur. Ən başlıcası isə insanlar rahat yaşayır, gələcəyə ümidlə baxır. Ona görə də xalq 1993-cü ilin iyun ayında Heydər Əliyevin qayıdışını Milli Qurtuluş Günü kimi qeyd edir."





"Xalqımız tərəfindən 15 İyun - Milli Qurtuluş Günü müasir tariximizin ən önəmli hadisəsi kimi qeyd edilir, dəyərləndirilir" söyləyən Ə.Əhmədov vurğuladı ki, bu onunla əlaqədardır ki, insanlar bugünkü həyatlarını, ölkəmizin bugünkü firavanlığını və gələcəklə bağlı aydın görünən perspektivlərini Milli Qurtuluş Günü ilə, Heydər Əliyevin tarixi qayıdışı ilə bilavasitə əlaqələndirirlər: "Çünki Azərbaycanın müasir tarixində, hər bir vətəndaşın həyatında baş verən müsbət dəyişikliklər, ilk növbədə, Heydər Əliyevin möhtəşəm qayıdışı və bu qayıdışın yaratdığı Qurtuluş məfkurəsi ilə birbaşa bağlıdır. Qurtuluş və Heydər Əliyevin möhtəşəm qayıdışı Azərbaycan xalqının istəyinin və iradəsinin ifadəsi kimi qəbul olunur. Ölkəmizin tarixinin ən həssas dövründə Heydər Əliyevin hakimiyyətə qayıdışı Azərbaycanın mövcudluğunun, müstəqilliyinin və gələcək inkişafının yeganə və həlledici səbəbi kimi dərk olunur. Bu gün o dövrə qayıdarkən, Azərbaycanın bugünkü reallıqlarını göz önünə gətirib müqayisə apararkən ulu öndər Heydər Əliyevin möhtəşəm qayıdışının Azərbaycanın müasir tarixində və hər bir vətəndaşın həyatında nə qədər önəmli bir hadisə olduğunu dəyərləndirmək çətin olmaz. Heydər Əliyevin tarixi qayıdışı Azərbaycanın müstəqilliyinin xilası idi. Bu qayıdışın əsasını Qurtuluş məfkurəsi təşkil edir. Qurtuluşun digər mənası Azərbaycanın siyasi təlatümlərdən xilas edilməsi ilə bağlıdır. O dövrü xatırlayanlar bunun nə demək olduğunu aydın şəkildə təsəvvür edirlər. Qurtuluş, eyni zamanda, iqtisadi tənəzzülün qarşısını aldı. Bu da Heydər Əliyevin böyük qayıdışını əks etdirən çox vacib məqamlardan biridir. Eyni zamanda, bir məqam da odur ki, Qurtuluş Azərbaycanı o zaman düçar olduğu beynəlxalq təcriddən xilas etdi. Ümumiləşmə apararaq demək olar ki, Qurtuluş məfkurəsi Azərbaycanın mənəvi böhrandan, mənəvi aşınmadan xilas olması mənasını daşıyır. Heydər Əliyevin hakimiyyətə qayıdışı, əslində, Azərbaycanı bütün istiqamətlər üzrə bürümüş böhrandan xilas etdi. Bu, Heydər Əliyevin xilaskarlıq missiyasının özündə ehtiva edirdi."

Ə.Əhmədov qeyd etdi ki, 1990-cı illərin əvvəlində Azərbaycan təlatümlü anlarını yaşayanda xalqın qəlbində əsas kök salan istəklər hər şeydən əvvəl Azərbaycanın məhv olmaqdan xilas edilməsi ilə bağlı idi: "Bu xilası da ümummilli lider Heydər Əliyevin adı ilə əlaqələndirirdilər. Heydər Əliyevin atdığı qətiyyətli addımlar insanların bu gözləntilərini tamamilə doğrultdu". Müstəqilliyin əvvəllərində Azərbaycan anarxiya, parçalanmaq və məhv olmaq təhlükəsi, iqtisadi tənəzzül, beynəlxalq təcrid ilə üzləşmişdir."

YAP Sədrinin müavini qeyd etdi ki, bu gün Prezident İlham Əliyevin rəhbərliyi ilə həyata keçirilən dövlət siyasəti məhz ölkəmizin daha da güclənməsinə və xalqın rifahının yüksəlməsinə xidmət edir: "İnanırıq ki, Qurtuluş məfkurəsi öz möcüzəsini bir dəfə göstərdiyi kimi, bundan sonra da göstərəcək. Qurtuluş elə bir sönməyən enerjidir ki, uzun dövrlər Azərbaycan xalqına xidmət edəcək. İnanırıq ki, illər ötdükcə Qurtuluş məfkurəsinin bizə verdiyi faydalar daha da artacaq və Qurtuluşun növbəti ildönümlərini daha böyük uğurlarla qeyd edəcəyik."

"1992-93-cü illərdə hakimiyyətdə olan və Azərbaycanı məhv olmaq təhlükəsi ilə üzüzə qoyan qüvvələr bu gün ölkəmiz haqqında əsassız fikirlər söyləyir, sosial şəbəkələrdə yanlış məlumatlar yayırlar" deyən Ə.Əhmədov onu da vurğuladı ki, hansı ki, onların hakimiyyəti dövründə ölkədə inflyasiya 1600 faizi ötmüşdü, siyasi böhran, xaos, anarxiya getdikcə dərinləşirdi: "Həmin insanların bu gün Azərbaycanın inkişafına, uğurlarına qarşı fikirlərinin heç bir əsası yoxdur. Gənclərimiz belələrinə qarşı, onların yalanlarına qarşı mübarizəni davam etdirməli, böhtanlarına ifşa etməlidirlər."

Tədbir iştirakçılarını bir daha bayram münasibətilə təbrik edən Ə.Əhmədov gənclərə uğurlar arzuladı, 28 ilə yaxın müstəqillik tarixinə malik olan gənc Azərbaycanın daha da qüdrətlənməsinə, çiçəklənməsinə davamlı töhfələr verməyə çağırdı. Bildirdi ki, Azərbaycan gənclər ölkəsidir. Hər bir Azərbaycan gənci yaradılan şəraitdən maksimum bəhrələnərək öz potensial imkanlarını ortaya qoya bilər.

Ə.Əhmədov uğurlarda ulu öndər Heydər Əliyevin yaradıcısı olduğu, hazırda Prezident İlham Əliyevin rəhbərlik etdiyi Yeni Azərbaycan Partiyasının xidmətlərinin böyük olduğunu xüsusi vurğuladı: "Partiyanın hər bir üzvü ölkənin inkişafına öz töhfələrini verməyə çalışır. Azərbaycan tarixində qürurverici hadisələrdən biri məhz Yeni Azərbaycan Partiyasının yaradılması, gücünün günbəgün artması və ölkənin ictimai-siyasi həyatında əhəmiyyətli və özünəməxsus yer tutmasıdır. YAP-ın üzvlərinin sayı 730 mindən çoxdur. Bu, böyük ordudur. Bu ordunun silahı Heydər Əliyev ideyaları, Prezident İlham Əliyevin həyata keçirdiyi təkmil islahatlar, uğurlu siyasətdir. Qurtuluş məfkurəsinin müəyyənləşdirdiyi yeniləşmə, müasirləşmə həyata keçirilən siyasətin əsasında dayanır. Azərbaycan hazırda bütün sahələrdə inkişaf dövrünü yaşayır. Bu inkişafın davamlılığını təmin etmək üçün dövlətimizin başçısı İlham Əliyev biri-birindən əhəmiyyətli fərman və sərəncamlar imzalayır, Dövlət proqramlarını təsdiqləyir. 2020-ci ilə qədərki dövrü əhatə edən "Azərbaycan 2020: gələcəyə baxış" İnkişaf Konsepsiyasında Azərbaycanı inkişaf etmiş ölkələr sırasında görmək istəyimiz əsas hədəf kimi əksini tapıb. Təbii ki, bu hədəflərə əsas verən əsas amil Qurtuluşdan başlanan yolun ölkəmizə qazandırdığı uğurlardır. Ölkəmizin uzun illər bu yolla gedəcəyinə və daha böyük uğurlar qazanacağına dərindən inanıram. Milli Qurtuluş Günü bayramınız mübarək olsun!"

Fəal gənclərdən YAP Suraxanı rayon təşkilatı Gənclər Birliyinin sədri Fərəh Məcidzadə, YAP Nəsimi rayon təşkilatı Gənclər Birliyinin sədri Salman Salmanov, YAP Nərimanov rayon təşkilatı Gənclər Birliyinin sədri Nərminə Yunusova və YAP Yasamal rayon təşkilatı Gənclər Birliyinin sədri İlqar Quliyev çıxış edərək Qurtuluşun müstəqilliyimizin əbədiyyət tarixi olduğunu bildirdilər. Çıxışlarda bir daha vurğulandı ki, 1993-cü ilin 15 iyununun tarixə Milli Qurtuluş Günü kimi daxil edilməsi həmin dövrün hadisələrinin aydın şəkildə təhlili olmaqla yanaşı, Azərbaycanın gələcək inkişaf yoluna düşən işığıdır.











**Yeganə Əliyeva, Vüsal Cahanov (foto), *"İki sahil"***

# SOCAR-AMEA əməkdaşlığı çərçivəsində Yüksək Texnologiyalar Parkında müxtəlif təyinatlı sürtkü yağları və digər istehlak məhsulları istehsal olunur









**Bu gün SOCAR-ın prezidenti Rövnəq Abdullayev və Şirkət rəhbərliyinin nümayəndələri AMEA Yüksək Texnologiyalar Parkında olmuşlar. Azərbaycan Milli Elmlər Akademiyasının prezidenti akademik Akif Əlizadə bildirib ki, Yüksək Texnologiyalar Parkı Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin 8 noyabr 2016-cı il tarixli Sərəncamı ilə yaradılıb və burada müxtəlif təyinatlı innovativ müəssisələr fəaliyyət göstərir.**













SOCAR rəhbərliyi ilk növbədə AMEA Strateji Elmi Analitik Sınaq Mərkəzinin fəaliyyəti ilə tanış olmuş, daha sonra "AMEA Təcrübə -Sənaye Zavodu" SOCAR ilə əməkdaşlıq çərçivəsində öz xammal təchizatının bir hissəsini Heydər Əliyev adına Neft Emalı Zavodunun vasitəsilə həyata keçirir. Azərbaycanda yüksək keyfiyyətli sürtkü yağları, antikorroziya vasitələri, dizel mühərrik yağları, transmissiya yağları, yanacaq qatqıları, qazma məhlulları kimi müxtəlif çeşidli məhsulları istehsal edən MMC-lər bununla SOCAR-ın dəyər zəncirinin son istehlak məhsullarına çevrilməsində iştirak edirlər.

Daha sonra SOCAR-ın rəhbər heyəti AMEA Strateji Elmi Tədqiqatlar Mərkəzinin pilotsuz uçuş aparatları və hərbi yönümlü innovasiya məhsulları ilə tanış olublar. Görüşün sonunda AMEA Yüksək Texnologiyalar Parkının əsas inzibati binasında dəyirmi masa ətrafında gələcək əməkdaşlığın təşkili, kadr və təcrübə mübadiləsinin aparılması ilə bağlı müzakirə aparılıb.

Qeyd edək ki, AMEA-nın təşəbbüsü ilə qurulmuş və beynəlxalq akkreditasiyadan keçmiş Yüksək Texnologiyalar Parkının əsas hədəfləri Azərbaycanda iqtisadiyyatın davamlı inkişafına töhfə vermək, iqtisadiyyatımızın ümumi rəqabət qabiliyyətini artırmaq, habelə müasir elmi və texnoloji nailiyyətlərə, yüksək texnologiyalara əsaslanan istehsalat müəssisələrinin fəaliyyəti üçün münbit şərait yaratmaqdır. Yüksək Texnologiyalar Parkının rezidentləri müxtəlif çeşidli sürtkü materiallarından əlavə həm də elektronika, avtomatika, proqram təminatı, dron və digər elektron cihazlarını istehsal edir. Parkda dünya standartlarına cavab verən yeni nəsil pilotsuz uçuş aparatlarının istehsalı artıq təkmilləşdirilib, perspektivdə çoxfunksiyalı dronların istehsalı nəzərdə tutulur.

# "Böyük publisistika ənənələrinin müasir təqdimatı"

**Azərbaycan Milli Elmlər Akademiyasının (AMEA) Nizami Gəncəvi adına Ədəbiyyat İnstitutunda "Azərbaycan" qəzetinin 100 illiyinə həsr olunmuş "Böyük publisistika ənənələrinin müasir təqdimatı" mövzusunda elmi sessiya keçirilib.**

Tədbiri giriş sözü ilə AMEA-nın vitse-prezidenti, Nizami Gəncəvi adına Ədəbiyyat İnstitutunun direktoru, akademik İsa Həbibbəyli açıb. Təqdimatı keçirilən "100 yaşlı "Azərbaycan" kitabında "Azərbaycan" qəzetinin keçdiyi inkişaf yolundan, uğurlarından, mübarizələrindən, hətta problemlərindən də bəhs edildiyini vurğulayan akademik İsa Həbibbəyli "Azərbaycan" qəzetini bir əsrlik Azərbaycan mətbuatının etibarlı mənbəyi, zəngin qaynağı kimi xarakterizə edib. Xüsusi olaraq vurğulayıb ki, "Azərbaycan" qəzeti rəsmi dövlət orqanı olaraq həm bütün xalqı, həm də müxtəlif təbəqələrin ziyalılarını öz ətrafına toplaya bilib. Mətbuat tarixində məktəb yaratmış bu qəzetin Ceyhun Hacıbəyli, Xəlil İbrahim kimi baş redaktorlarının əməyini yüksək qiymətləndirib. Bu gün həmin ənənələri millət vəkili, professional jurnalist Bəxtiyar Sadıqovun layiqincə davam etdirdiyini təqdirəlayiq hal kimi dəyərləndirib.

"Azərbaycan" qəzetinin ümummilli lider Heydər Əliyevin də sevdiyi, inandığı, etibar etdiyi mətbu orqan olduğunu, həmçinin ölkə başçısı İlham Əliyevin də qəzetin yubileyinin keçirilməsi üçün geniş imkanlar yaratdığını diqqətə çatdıran akademik İsa Həbibbəyli nəşr olunmuş kitabın elmi-tarixi əhəmiyyətini xüsusi vurğulayıb.

Daha sonra AMEA-nın Humanitar Elmlər Bölməsinin akademik-katibi, akademik Teymur Kərimli "Azərbaycanda rəsmi dövlət mətbuat nümunəsi: ənənə və müasirlik" mövzusunda məruzə ilə çıxış edib. O, məruzəsində "Azərbaycan" qəzetini nəşrə başladığı dövrdən istiqlal yolunda bir ordu qədər xidmət göstərən mətbuat orqanı olaraq təqdir edib. Eyni zamanda, məruzədə qəzetin keçdiyi inkişaf yolu, redaktorları və digər əməkdaşları barədə ətraflı məlumat verilib.

Milli Məclisin deputatı, akademik Nizami Cəfərov qəzetin digər üstünlükləri ilə yanaşı, Azərbaycan ədəbi dilinin normalarının qorunması işində xüsusi seçildiyini də nəzərə çatdırıb.

Əməkdar elm xadimi, professor Qəzənfər Paşayev qəzetin səhifələrində Ədəbiyyat İnstitutunun əməkdaşlarına da yer verildiyi üçün təşəkkürünü bildirib.

Azərbaycan-Asiya ədəbi əlaqələri şöbəsinin müdiri, professor Bədirxan




Əhmədov qəzetin tarixinə nəzər salaraq qeyd edib ki, "Əkinçi" qəzeti ilk qəzet nümunəsi olduğu kimi, "Azərbaycan" qəzeti də ilk rəsmi qəzet olmuşdur. Əvvəl Gəncədə, sonra Bakıda nəşr olunan qəzetin Cümhuriyyətin süqutundan sonra həbs taleyi yaşamağa məhkum edildiyini bildirib. Çünki qəzeti oxumaq üçün rəsmi icazə ilə müraciət olunsa da, icazə verilmədiyini təəssüf hissi ilə qeyd edib.

Filologiya elmləri doktoru Elçin Mehrəliyev "Azərbaycan"ın bayramı Azərbaycan ədəbiyyatında bayramdır" adlı məruzəsində təqdimatı keçirilən kitab haqqında hərtərəfli məlumat verərək qəzetin müxtəlif tarixi mərhələlərdə sınaqlardan çıxdığını mübarizlik nümunəsi kimi örnək göstərib.

"Azərbaycan" qəzetinin baş redaktoru, Milli Məclisin deputatı Bəxtiyar Sadıqov çıxışında ədəbiyyatşünas alimlərə, elmi ictimaiyyətin nümayəndələrinə minnətdarlığını bildirib. Həmçinin qeyd edib ki, "Azərbaycan - 90" kitabında yalnız Cümhuriyyət dövrü əhatə olunmuşdursa, bu kitabda qəzetin bütün fəaliyyətinə işıq salınıb.

Sonda Ədəbiyyat İnstitutunun direktoru İsa Həbibbəyli Nizami Gəncəvinin "Leyli və Məcnun" əsərinin AMEA tərəfindən çap olunmuş nüsxəsini "Azərbaycan" qəzetinin baş redaktoru Bəxtiyar Sadıqova təqdim edib.

# Qurtuluşun fəlsəfəsi

**Yalnız yüksək amallara xidmət edən cahanşümul bir ideya, qloballaşan dünyada gedən proseslərin obyektiv dərkinə əsaslanan hərtərəfli işlənib hazırlanmış elmi konsepsiya bu gün haqqında hər birimizin böyük qürur hissi ilə danışdığımız müstəqil, dinamik inkişaf edən Azərbaycan reallığını ərsəyə gətirə bilərdi.**



Yaxın tarixi təcrübəmiz real şəkildə sübut etdi ki, əgər müstəqillik həqiqi mənada xalqa xidmət edirsə, millətə öz milli həyatını sərbəst, özünəməxsus şəkildə qurmaq imkanı verirsə, yalnız bu halda o, milli inkişafın ən müqəddəm şərti hesab oluna bilər. 15 iyun Milli Qurtuluş Gününün yaranma fəlsəfəsi də məhz yuxarıda qeyd etdiyimiz ali və uca missiyaya xidmət edən bir ideologiya ilə silahlanmış qüdrətli rəhbərin düşüncə və fəaliyyəti prizmasında dəyərləndirilməlidir.

Ümummilli Lider Heydər Əliyevin vaxtilə söylədiyi "Heç kəsin şübhəsi olmasın ki, ömrümün bundan sonrakı hissəsini harda olursa-olsun, yalnız və yalnız Azərbaycan Respublikasının müstəqil dövlət kimi inkişaf etməsinə həsr edəcəyəm" deyimini bu gün də həyəcansız xatırlamaq mümkün deyil. Ona görə ki, xalqımızın əsrlər boyu uğrunda mübarizə apardığı, lakin əsl milli dəyər mahiyyətini bugünkü uğurlarımızda daha real dərk etdiyi müstəqillik idealında cəmiyyətimizin qarşılaşdığı məşəqqət, faciəli anlar ağrılı günlər öz izini qoymuşdur. Ulu Öndərin bu həyat manifesti bizdə ölçüyəgəlməz qürur hissi doğurur, çünki bu optimizmdə onun rəhbərliyi ilə milli varlığımızın taleyüklü problemlərinin həlli yolunda atılan uğurlu addımları, milli tərəqqiyə mane olan neqativ əyintiləri vaxtında təmkin və qətiyyətlə aradan qaldırmaq əzmi və bacarığı, elin qüdrətindən mayalanan milli təfəkkürün yaradıcı potensial təcəssümünü tapmışdır. Məhz buna görə Heydər Əliyevin müstəqillik konsepsiyası Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin rəhbərliyi ilə ölkəmizin əldə etdiyi uğurlar fonunda xüsusi aktuallıqla səslənir.

Ulu Öndər özünün bütün siyasi karyerası boyu xalqımızın müstəqilliyə yetmək istəyini dərindən duymuş və müdafiə etmiş, bu taleyüklü milli problemin məzmun və mahiyyətinə dərindən nüfuz etmiş, bu amalı özünün fəaliyyət kredosuna çevirmişdir. O, istər dərin məzmunlu çıxışlarında, istərsə də xalqla keçirdiyi görüşlərdə səsləndirdiyi ideyalarla müstəqillik konsepsiyasının nəzəri-praktiki əsaslarını yaratmışdır. Bu konsepsiyada milli dövlətçilik ideyaları ilə həmin ideyaları həyata keçirən müdrik siyasətin obrazının dialektik vəhdətini görürük. Məhz bu məqamda, istər sovet imperiyasının ağır repressiya maşının tam gücü ilə işlədiyi dövrdə, istərsə nisbi sabitlik və sülhün hakim olduğu vaxtlarda və nəhayət yeni ictimai-siyasi, iqtisadi epoxa ilə şərtlənən mürəkkəb müstəqillik illərində doğma xalqına xidmətin ən müxtəlif forma və metodlarını müəyyənləşdirən, tapıb üzə çıxaran Heydər Əliyev özünün zamana qalib gələn qüdrətli şəxsiyyəti ilə tarix səhnəsində olduqca əzəmətli görünür.



**Siyavuş Novruzov,**
*Milli Məclisin İctimai birliklər və dini qurumlar komitəsinin sədri, Yeni Azərbaycan Partiyası İcra katibinin müavini*

Azərbaycanın 1960-cı illərin sonundan başlanan və XXI əsrə adlayan tarixinin otuz dörd illik bir dövrü ulu öndər Heydər Əliyevin adı ilə qırılmaz tellərlə bağlıdır. O, Vətəndaş, Şəxsiyyət, Lider kimi bütün bu illərdə Azərbaycanın məsuliyyətini öz çiyinlərində daşımış, onu bir dövlət və xalqımızı bir millət kimi tarixin ağır və sərt sınaqlarından çıxarmış, müasir Azərbaycan adlandırdığımız müstəqil məmləkəti, onun bugünkü həqiqətlərini, işıqlı sabahının etibarlı bünövrəsini yaratmışdır. Bu illər ərzində Azərbaycan xalqının ictimai-siyasi, sosial-iqtisadi və mədəni həyatının bütün sahələrində dirçəliş məhz onun adı ilə əlaqədardır.

Məlum olduğu kimi, insan hüquqları və dövlət hakimiyyətinin məhdudlaşdırılması ideyası bu gün dünyada ictimai inkişaf prosesinə istiqamət verən mühüm ideyalardan biridir. İnsan hüquqları ciddi elmi araşdırmaların predmetinə, daxili siyasətlə bağlı qızğın müzakirə və mübahisələrin mövzusuna, əksər ölkələrin Konstitusiyasının ana xəttinə, sülh və əməkdaşlıq haqqında beynəlxalq sazişlərin başlıca məğzinə çevrilmişdir. Dünyanın əksər ölkələrində insan haqları insanın mövcudluğunun və milli inkişafın ən vacib şərti kimi qəbul olunur. Bunula yanaşı, insan hüquqları ideyasının həyata keçirilməsi hələ də bir çox anlaşılmazlıqların, ziddiyyətlərin, ölkədaxili və beynəlxalq gərginliklərin mənbəyi olaraq qalır.

Bütün digər sahələrdə olduğu kimi, Azərbaycanda da insan hüquqları sahəsində islahatların aparılması, zəruri hüquqi bazanın və institusional əsasların formalaşması məhz ümummilli liderimiz Heydər Əliyevin 1993-cü ildə siyasi hakimiyyətə qayıdışından sonra baş vermişdir. Ən əsası isə Ulu Öndər dövlətçiliyimizi təhdid edən təhlükəli tendensiyaları aradan qaldırdıqdan, müstəqil Azərbaycanın ideoloji-iqtisadi əsaslarını (Azərbaycançılıq ideologiyası və "Əsrin müqaviləsi") möhkəmləndirdikdən az sonra müəllifi olduğu 1995-ci il Konstitusiyasında insan hüquq və azadlıqlarını təsbit etdi və hüquqi təminat altına aldı. Beləliklə, olduqca qısa zaman kəsiyində müdrik rəhbərimizin dəmir məntiqi, silinməz dəsti xəttinin, zəngin həya təcrübəsi və işıqlı zəkasının ən böyük əsəri olan, dünya standartlarının tələblərinə tam dolğunluğu ilə cavab verən konstitusiya layihəsi hazırlanaraq ümumxalq səsverməsinə təqdim olundu. Həmin sənəd 12 noyabr 1995-ci ildə ümumxalq səsverməsi-referendum yolu ilə qəbul olundu. Bu gün Əsas qanunu iftixar hissi ilə xalqımız haqlı olaraq "Heydər Əliyev konstitusiyası" adlandırır, eyni zamanda onu Heydər Əliyevin siyasi yaradıcılığının şah əsəri hesab edir. Bu, xalqın rəhbərinə olan sonsuz və ülvi məhəbbətin ifadəsi, konstitusiyanın hazırlanmasında, müzakirəsində və qəbul edilməsində yorulmaz fəaliyyətinə verdiyi halal qiymətdir.

Siyasi sistem özündə müxtəlif profilli komponentləri cəmləşdirən çoxfunksiyalı strukturdur və bu sistemin hər bir komponenti özünün xüsusi strukturuna və ifadə xüsusiyyətlərinə malikdir. Belə çox funksiyalı strukturu təşkil edən ayrı-ayrı komponentlərin (institusional, funksional, requlyativ, kommunikativ, ideoloji profilli komponentlər) formalaşmasında Heydər Əliyev fenomeninin rolunu bir məqalə çərçivəsində şərh etmək çox çətindir. Lakin danılmaz həqiqətdir ki, Azərbaycanda siyasi sistemin təşəkkül tapmasında məhz onun müstəsna xidməti vardır. Belə ki, onun 30 ildən artıq bir müddətdə Azərbaycanda siyasi hakimiyyətin başında olması faktının özü çağdaş Azərbaycanın siyasi sisteminin formalaşmasında Heydər Əliyev fenomeninin hansı rola malik olmasını aydın şəkildə göstərir. Çünki məhz siyasi hakimiyyət siyasi sistemin elementlərinin tamərküzləşməsi və formalaşması baxımından ən vacib amildir. Siyasi sistemdə cəmiyyətin həyatının bütün yönləri - cəmiyyətin mövcudluğunun iqtisadi şərtləri, cəmiyyətin sosial və milli strukturu, ictimai şüurun vəziyyəti və səviyyəsi, mədəniyyət və s. öz əksini tapır. Məhz siyasi sistem vasitəsilə cəmiyyətin əsas maraqları, sosial prioritetlər müəyyənləşdirilir ki, sonralar onlar siyasətdə möhkəmlənir.

XXI əsr tarixə sivilizasiyanı keyfiyyətcə yeni bir mərhələyə yüksəldən qloballaşma əsri kimi daxil olmuşdur. İnkişaf səviyyələrində, din və mədəniyyətlərində, tarixi ənənələrində mövcud olan fərqlərə baxmayaraq, qlobal proseslər dünya ölkələrinin və xalqlarının bir-birindən qarşılıqlı asılılığını getdikcə artırır. Bu proseslər xalqların və bütövlükdə sivilizasiyanın taleyini həlledici dərəcədə müəyyən etməyə başlamışdır. Ümummilli liderimiz Heydər Əliyevin əsasını qoyduğu, möhtərəm Prezidentimiz İlham Əliyevin uğurla davam etdirdiyi daxili və xarici siyasət bugünkü qlobal reallığın və fundamental tendensiyaların mükəmməl dərkinə əsaslanır və hazırkı planetar miqyaslı konyuktur dəyişikliklərə tamamilə cavab verir.

Müasir dövrdə ictimai həyatın bütün sahələri kimi, mədəniyyətlər də getdikcə qloballaşmaya məruz qalır, fərqli sivilizasiyaların Hantinqtonun deyimi ilə sadəcə "qarşıdurması" deyil, həm də inteqrasiyası baş verir. Bu prosesdən təcrid olunmaq, öz milli məhdudluğuna qapanıb qalmaq qeyri-mümkündür. Qloballaşmanın gedişi, təbii ki, sivilizasiyaların taleyindən yan keçə bilməz. Belə ki, qloballaşan sosio-mədəni məkanda ölkələrin və sivilizasiyaların qarşılıqlı asılılığı daha da artır, miqrasiya prosesinin genişlənməsi ilə onların bir-birinə yaxınlaşması daha da intensiv səciyyə daşımağa başlayır, digər tərəfdən isə xalqların sivilizasion özünüdərki prosesi geniş vüsət alır, milli və dini zəmində ziddiyyətlər ortaya çıxır. Təbii ki, belə bir ortamda hər bir sivil dövlət qloballaşmanın ortaya çıxardığı ziddiyyətlərdən və fəsadlardan qaçaraq, bu axını xalqların iqtisadi, mədəni həyatının inkişafı üçün bir üstünlüyə çevirməlidir. Məhz bu amili nəzərə alaraq ulu öndər Heydər Əliyev uzaqgörənliklə demişdir ki, "Dünyanın inkişafının indiki mərhələsinin başlıca meyli qloballaşmadır. Bu mürəkkəb, heç də birmənalı olmayan prosesin perspektivləri bizim hamımızı düşündürür. Bu zəruri axın dövlətlərin sabit inkişafının, bütövlüyünün və idarəetmə sistemlərinin sabitliyinin təmin olunmasına, iqtisadi münasibətlərdə ayrı-seçkiliyin aradan qaldırılmasına, xalqların rifah halının yüksəldilməsinə kömək etməlidir". Beləliklə, Ümummilli Liderin Azərbaycan dövlətçiliyinin təməlinə yerləşdirdiyi azərbaycançılıq ideologiyasının birləşdirici və ehtivaedici xarakterinin aktuallığı günümüzdə daha artıq önəm və əhəmiyyət qazanır.

Müasir multimədəni cəmiyyətlər kulturoloji strategiyalara əsaslanan düşünülmüş multukulturalizm siyasəti olmadan sabit inkişaf edə bilməzlər. Bunun sübutlarından biri Azərbaycan Respublikasının inkişafıdır ki, burada Azərbaycanın milli mədəniyyətinə müvəffəqiyyətlə inteqrasiya olan müxtəlif xalqların nümayəndələri harmonik inkişaf edirlər. Multikulturalizmdən imtina etmək yaxşı heç nə vəd etmir, çünki bu, təəssüf ki, bütün dünyada getdikcə artan anlaşılmazlığa, fobiyaya, qarşıqoymaya və qarşıdurmaya, milli və dini münaqişələrə aparıb çıxaran yoldur. Bu baxımdan əsası ümummilli lider Heydər Əliyev tərəfindən qoyulan və hazırda möhtərəm Prezidentimiz İlham Əliyev tərəfindən uğurla davam etdirilən multikulturalizmin Azərbaycan modeli sınanmış və optimal variant kimi qarşımıza çıxır.

Ulu öndər Heydər Əliyev bununla ilk növbədə multikulturalizm siyasi modelinin assimilyasiya və izolyasiya kimi digər mümkün siyasi modellərdən üstün olduğunu bütün dünyaya nümayiş etdirdi. "Azərbaycan əhalisinin çoxmilli tərkibi bizim sərvətimizdir, üstünlüyümüzdür. Biz bunu qiymətləndiririk və qoruyub saxlayacağıq" deyən Ulu Öndər bütün sonrakı siyasi fəaliyyətini bu sərvətin əbədi olması istiqamətinə yönəltdi.

Azərbaycanın ən yeni tarixi şəxsiyyətin və liderin ictimai-dövlət həyatındakı rolunun əsrlər dəyişdikcə nəinki azalmadığı, hətta effektiv çalarlar qazanaraq praqmatik məzmun və mahiyyət kəsb etdiyini bir daha təsdiqləyir.Təbii ki, politoloji anlamda lider dediyimiz şəxs tarixi inkişafın obyektiv qanunauyğunluqlarını dərindən dərk edən, cəmiyyətin dinamik güclərini vahid ideya ətrafında səfərbər edərək, addım-addım hədəfə çatmağa bacaran, strateji və proqressiv düşüncə tərzinə malik rəhbər modelini ehtiva edir. Belə rəhbərin fəaliyyəti möhkəm sosial-iqtisadi və ideoloji bazaya, elektoratın sonsuz inamına söykənən bir sistemə malikdirsə və bütün bu komponentlərin məcmusu yeni və qüdrətli liderə transformasiya edirsə, daha əzəmətli və uzunömürlü olur. Ümummilli liderimiz Heydər Əliyevin layiqli varisi, möhtərəm Prezidentimiz İlham Əliyevin timsalında xalqımız öz taleyində məhz belə uğurlu fenomenə şahidlik etməkdədir.

Siyasətini milli maraqlarımızın tam təmin olunması üzərində quran, ümummilli liderimiz Heydər Əliyevin müəyyənləşdirdiyi dinamik inkişaf strategiyasını rəhbər tutan və regionda çox böyük nüfuza malik olan cənab İlham Əliyevin dövlətimizin başçısı seçilməsi ilə müasir tariximizdə keyfiyyətcə yeni mərhələnin başlanğıcı qoyulub. Bütün sahələrdə köklü dəyişikliklər, xalqın rifah halının daim yaxşılaşdırılması, Azərbaycanın dünyadakı rolunun yüksəlməsi ilə müşayiət olunan mərhələli daxili və xarici siyasi kursumuzda möhtəşəm uğurlarla, nəhəng abadlıq və quruculuq işləri və dünyada bənzəri olmayan sıçrayışlı iqtisadi inkişaf tariximizə qızıl hərflərlə yazılmaqdadır.

## "SARSILMAZ QARDAŞLIQ" VƏ SARSILAN ERMƏNİSTAN:

# hərbi təlimlərdən titrəyən düşmən



Ermənilər yeni bir təlaşa qapılıblar. Onlar iyun ayının 7-11-də Naxçıvanda keçirilən Azərbaycan-Türkiyə birgə hərbi təlimlərini şərh edərkən absurd ifadələr işlədirlər. Açıq hiss edilir ki, iki qardaş ölkənin getdikcə daha da artan gücü qarşısında Ermənistan zavallı vəziyyətə düşür. Azərbaycan bütün sahələrdə inkişaf etdikcə, Ermənistan narahat olur və böhtanlar yağdırmağa girişir. Ayrıca, ordumuz hərbi gücünü nümayiş etdirəndə erməni tərəfi özünü itirir. "Sarsılmaz qardaşlıq" hərbi təlimlərinə də eyni reaksiya oldu. İş o yerə çatıb ki, Ermənistan rəhbərliyi Rusiyaya müraciət edərək türklərə hansısa cavab verməyin lazım olduğundan bəhs edib. Bu sırada Ermənistan-Yunanıstan-Kipr "sivil platforması" kimi absurd və mənasız bir ifadəni belə işlətməkdən utanmayıblar. Əlbəttə, onların "sivilliyi" qətlə yetirilən günahsız insanların qanlarında yerini tutub. Ondan başqa ermənilərin "sivilliyi"ni sübut edən fakt yoxdur. Son olaraq Azərbaycanda təlim keçən zabitin alçaqcasına və qorxaqcasına qətlə yetirilməsi erməni "mədəniliyi", "sülhsevərliyi" və "sivilliyi"nin nümunəsidir. Əlbəttə, onların apatiyalarının səbəbi aydındır: Azərbaycan daha güclü olur və öz ərazi bütövlüyünü bərpa etməyə çox yaxındır. Bütün bunların fonunda regionun geosiyasi mənzərəsi üzərində geniş dayanmağa ehtiyac duyuruq.

### "Yardım edin": rəsmi İrəvan kimə yalvardı?

Ermənistanın xarici siyasəti həmişə reallıqdan uzaq olub, qeyri-konstruktiv və əsassız prinsiplərə əsaslanıb. Son zamanlar bu tendensiya daha da güclənib. Nikol Paşinyanın özündən əvvəlki rəhbərlərdən fərqi daha da sözbaz olmasındadır. Onun fəaliyyəti ancaq sözlərdən ibarətdir. Onların heç birinin yerinə yetirilmədiyi də göz qabağındadır. Məsələn, ölkədə heç bir real iqtisadi islahat aparılmır. Xaricdən sərmayə sıfır səviyyəsindədir. Korrupsiya və vətənə xəyanət adı altında həbs etdiklərini Kreml bir işarə ilə azadlığa çıxarır. N.Paşinyan hirslənib bütün məhkəmə sistemini dəyişəcəyini deyir, lakin yenə də ağzına elə vururlar ki, indi Dilicanda "XXI əsr erməni əsridir" kimi absurd şüarla adamların başını qatır.

Xarici siyasətdə Dağlıq Qarabağdakı terrorçu-separatçıları danışıqlar prosesinə qoşmaq kimi əsassız bir iddia ilə özünü ortaya atdı. ATƏT-in Minsk qrupunun həmsədrləri də daxil olmaqla hər kəs qarşısını kəsdi. Bir sıra ölkələrə səfər edən N.Paşinyan sözdən başqa bir şey gətirə bilmədi. İndi də Dağlıq Qarabağla bağlı yeni söz oyununa başlayıblar.

Öncə onu vurğulayaq ki, ermənilər müxtəlif istiqamətlərdə Azərbaycan üçün problemlər yaratmağa cəhdlər göstərdilər. Gürcüstanda "Keşikçidağ" məbədi ilə bağlı qaldırılan hay-küy də təsadüfi deyildi. Sonra Türkiyəyə qarşı Avropada müəyyən cəhdlər edildi. Hətta İstanbulun adını dəyişməkdən belə danışdılar, öz bayraqlarının şəklini müxtəlif plakatlara çəkdilər. Ankara elə sərt cavab verdi ki, bunların heç birindən əsər-əlamət qalmadı. Ondan sonra Bakıda futbol matçı haqqında mənasız iddialar ortaya atmağa çalışdılar. Azərbaycan bu informasiya təxribatını da yerlə-yeksan etdi. Rəsmi Bakı ona qarşı aparılan informasiya təxribatlarının fərqində olduğunu açıq bəyan etdi. Bütün bunlar ermənilərin nə dərəcədə primitiv və aciz olduqlarını aydın göstərir. Bundan əlavə, Ermənistandan fərqli olaraq, Azərbaycan konkret əməli addımları ilə real tərəqqidə olduğunu nümayiş etdirməkdədir.

Bu, "Sarsılmaz qardaşlıq-2019" hərbi təlimlərinin fonunda daha aydın özünü büruzə verir. Təlimlərdə iki qardaş ölkənin hərbçiləri koordinasiyalı, peşəkar və yüksək əhval-ruhiyyədə hərəkət edə biləcəklərini nümayiş etdirdilər. Bunlara erməni "ekspertləri" elə çaşqın reaksiya verdilər ki, hətta Amerika, İran və Rusiyanı belə ortaya qatmağa çalışdılar, iki türk dövlətinin İranla yaxınlıq edərək regionda Qərbə ziyan verəcəyi haqqında əsassız iddia irəli sürdülər. Amma hamı yaxşı bilir ki, İran-Ermənistan münasibətləri necədir və kim kiminlə hansı oyunu aparır.

Burada əlbəttə ki, erməniləri qorxuya salan əsas olaraq Azərbaycanın sürətli inkişafı və hərbi sahədə Türkiyə ilə əməkdaşlığı dərinləşdirməsidir. Lakin hamıya aydındır ki, bu prosesi Azərbaycan ancaq özünümüdafiə imkanlarını artırmaq, ərazi bütövlüyünü bərpa etmək və regionda sabitliyi qorumaq naminə edir. Onun kimsənin torpağında gözü yoxdur. Əksinə, Azərbaycan torpaqlarında gözü olan naqislərin əl-ayağını kəsməyə çalışır.

### Regiona təhlükə: atılan güllələrin geosiyasi əks-sədası

Ermənistan bütün bu proseslərdən o qədər ehtiyat edir ki, Dağlıq Qarabağ münaqişəsi ilə bağlı aparılan danışıqları dalana dirəmək metodundan əl çəkmir. Həmsədrlərin regiona səfəri zamanı Azərbaycan zabitinin qətlə yetirilməsi bunu təsdiq edən faktlardandır. Daha sonra isə Ermənistanın müdafiə naziri David Tonoyan həyasızcasına azərbaycanlı əsgəri şəhid edən erməni silahlı quldurlarını təltif etdiyini bəyanlayır. Və bu kimi vəhşi hərəkətlər bir sıra erməni ekspertlərinin Ermənistan-Yunanıstan-Kipr "sivil platforması" haqqında sayıqlamaları fonunda baş verir. Deməli, onlar sağlam düşüncəni o dərəcədə itiriblər ki, atdıqları addımların birbirinə uyğun olub-olmamasını hesablaya bilmirlər. Əslində, erməni siyasi-ideoloji şüuru həmişə bu cür ziddiyyətlərlə dolu olub.

Ermənistan rəhbərliyinin ATƏT-in Minsk qrupu həmsədrlərinin bölgəyə səfərinə bu cür reaksiya verməsi onu göstərir ki, rəsmi İrəvan danışıqların davam etməsində və konkret addımlar atılmasında maraqlı deyil. Bu, indiki erməni hakimiyyətinin əsl simasını açdı. Görünür, Ermənistan və havadarları vəziyyəti qeyri-müəyyənlikdə saxlamaqdan başqa yol görmürlər. Çünki bütün arqumentlər Azərbaycanın haqlı olduğunu göstərir.

Ermənistanın bu mövqeyi regionda kifayət qədər təhlükəli vəziyyət yarada bilər. Burada müharibə riski artır. Ekspertlər hesab edirlər ki, hansısa məqamda regionda hərbi əməliyyatlar başlaya bilər. Sirr deyil ki, Cənubi Qafqazın qarışmasında maraqlı olan siyasi-hərbi dairələr də mövcuddur. Onları daha çox Azərbaycandakı sabitlik və inkişaf narahat edir. Bütün regional layihələr Azərbaycanla bağlıdır. Ermənistan isə təcrid vəziyyətindədir. Belə çıxır ki, suyun bulandırılması daha çox Azərbaycanın iştirak etdiyi layihələrə ziyan vura bilər.

Lakin məhz Azərbaycan təcavüzə məruz qalıb. Onun ərazisinin 20 faizi işğal altındadır. Ölkənin ərazi bütövlüyü mütləq bərpa olunmalıdır. Və bunun qarşısını heç bir güc və ya şərtlər kəsə bilməz. Bu səbəbdən münaqişənin danışıqlar yolu ilə ədalətli həllində böyük güclərin də marağı olmalıdır.

Əlbəttə, Ermənistan regionda geosiyasi mənzərəni qeyri-müəyyənliyə salmasının qarşısını asanlıqla almaq olar. Bunun üçün Minsk qrupunun həmsədrlərinin Ermənistandan qəbul edilən sənədlərin müddəalarına əməl etməsi tələbini qəti qoyması kifayətdir. Lakin həmsədrlər nəinki bunu edirlər, hətta müxtəlif üsullarla təcavüzkara dəstək belə verirlər. Təəssüf ki, bu, faktdır və vəziyyət hələ də hiss ediləcək dərəcədə dəyişməyib. O halda deyə bilərik ki, regionda münaqişələrlə bağlı geosiyasi vəziyyətin qeyri-müəyyən olmasında Ermənistanla yanaşı, həmsədrlərin fəaliyyətinin səmərəsizliyi də rol oynayır.

Bu məqamın regiondakı duruma təsiri isə daha çox dərəcədə mənfi ola bilər. Çünki qlobal miqyasda geosiyasi güc mərkəzlərinin qarşıdurması daha da kəskinləşib. Hər şeydən əvvəl ABŞ-Rusiya münasibətləri xeyli gərgindir. Onlar dünyanın müxtəlif regionlarında sərt şəkildə mübarizə aparırlar. Hətta silah tətbiqindən belə çəkinmirlər. Digər riskli faktor ABŞ-İran münasibətləri ilə bağlıdır. Bu məqam hazırda daha təhlükəli görünür. Amerika ilə İran bir-birinə hərbi güc tətbiq etməkdən bəhs edirlər. Eyni zamanda, İranda daxili sosial-iqtisadi vəziyyət son dərəcə ağırlaşıb. Orada etiraz dalğası getdikcə artır. Əgər İranda sabitlik pozulsa, onda ətraf ölkələrə onun mənfi təsiri özünü göstərə bilər. O halda Azərbaycana qarşı da təxribatların törədilməsi cəhdləri istisna edilmir.

Onu da vurğulayaq ki, ABŞ-Avropa münasibətləri də ciddi risklərlə xarakterizə olunur. Ayrıca, Vaşinqton-Paris xəttində mövcud olan gərginliklər məlumdur. Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin həllində bunun nə dərəcədə əks olunacağı hələ məlum deyil. Burada Ukrayna məsələsində ABŞ-Aİ-Rusiya "üçbucağı"nda özünü göstərən təhlükələri də unutmaq olmaz.

Bütün bu müqayisələr onu göstərir ki, bir sıra böyük dövlətlər arasındakı gərgin münasibət Ermənistandan qaynaqlanan risklərlə birgə Cənubi Qafqazı yeni risk zonasına ata bilər. Bundan ancaq region dövlətlərinin zərər görəcəyini düşünmək sadəlövhlükdür. Əksinə, proses zəncirvarı olaraq daha geniş məkana yayıla bilər. Bunun proqnozlaşdırılması elə də çətin məsələ deyil. Ancaq, deyəsən, müəyyən dairələrə elə bu cür gedişat sərf edir. Ona da şübhə yoxdur ki, həmin vəziyyət heç bir xalqa sərf etmir!

**Newtimes.az**

# Ümummilli lider Heydər Əliyevin xilaskarlıq missiyası





AMEA Naxçıvan Bölməsində 15 İyun - Milli Qurtuluş Günü ilə əlaqədar elmi konfrans keçirilib.

Tədbirdə Bölmənin sədri, akademik İsmayıl Hacıyev Azərbaycanın müasir dövr tarixinə qızıl hərflərlə yazılan 15 İyun - Milli Qurtuluş Günü tarixinin əhəmiyyətindən danışıb, əlamətdar gün münasibətilə bu elmi müəssisənin əməkdaşlarını təbrik edib. Bildirib ki, ümummilli lider Heydər Əliyev hakimiyyətə yenidən qayıdışı ilə Milli Qurtuluşumuzun əsasını qoyub. Dahi öndər istedadını, zəngin təcrübəsini azad, müstəqil, dünya sivilizasiyalı dövlətlər səviyyəsinə çatan bir dövlət qurmağa sərf edib. Onun uğurlu siyasəti sayəsində ölkəmiz dünyada tanınan nüfuzlu bir dövlətə çevrilib.

Qeyd olunub ki, Ulu Öndərin milli maraqlara əsaslanmaqla həyata keçirdiyi çoxşaxəli siyasət strategiyası bu gün Onun layiqli davamçısı Prezident İlham Əliyev tərəfindən uğurla davam etdirilir. Ölkə başçısının qloballaşan dünyanın tələbinə uyğun apardığı siyasi xətt Azərbaycan dövlətçiliyinin inkişafına, eyni zamanda ölkənin milli maraqlarının müdafiəsinə və iqtisadiyyatın inkişaf etməsinə misilsiz töhfələr verib.

Daha sonra Bölmənin Tarix, Etnoqrafiya və Arxeologiya İnstitutunun direktoru, AMEA-nın müxbir üzvü Fəxrəddin Səfərlinin "Ulu öndər Heydər Əliyev və Azərbaycanın xilaskarlıq missiyası" mövzusunda məruzəsi dinlənilib.

Təbii Ehtiyatlar İnstitutunun direktoru, AMEA-nın müxbir üzvü Əliəddin Abbasov və Əlyazmalar Fondunun direktoru, filologiya üzrə elmlər doktoru Fərman Xəlilov mövzu ətrafında çıxış ediblər.

# Sofiyada Dünya Xəbər Agentliklərinin VI Konqresinin açılış mərasimi keçirilib




İyunun 13-də Bolqarıstanın paytaxtı Sofiya şəhərində Dünya Xəbər Agentliklərinin VI Konqresinin açılış mərasimi keçirilib.

AZƏRTAC xəbər verir ki, Bolqarıstanın BTA agentliyinin təşkilatçılığı ilə "Xəbərlərin gələcəyi" devizi altında keçirilən Konqresdə dünyanın 100-ə yaxın ölkəsindən 200-dək aparıcı xəbər agentliyinin rəhbərləri və nümayəndələri, media üzrə beynəlxalq ekspertlər, həmçinin nüfuzlu media qurumlarının təmsilçiləri iştirak ediblər.

BTA agentliyinin icraçı direktoru Maksim Minçev tədbiri açaraq Dünya Xəbər Agentlikləri Konqresinin tarixi, habelə gündəlikdə duran məsələlər barədə məlumat verdi. M.Minçev qeyd etdi ki, bu gün müasir dünyada xəbər yayımı bir çox problemlərlə üzləşir. Bugünkü tədbirdə obyektiv xəbərlərin yayılması, feyk xəbərlərin qarşısının alınması istiqamətində addım atmaq üçün gözəl imkan var. Biz bu iş uğrunda səylərimizi birləşdirməliyik.

Maksim Minçev AZƏRTAC-ın İdarə Heyətinin sədri, Dünya Xəbər Agentlikləri Konqresinin prezidenti Aslan Aslanovun agentliyin 2016-2019-cu illərdə V Konqresə sədrliyi dövründə gördüyü işləri yüksək qiymətləndirib və ona minnətdarlığını ifadə etdi.

Bolqarıstanın Prezidenti Rumen Radev çıxış edərək Dünya Xəbər Agentlikləri Konqresinin əhəmiyyətinə toxundu, bu qurumun informasiya agentlikləri qarşısında duran vəzifələrin, onların üzləşdikləri problemlərin həlli üçün gözəl platforma olduğunu vurğuladı. Bildirdi ki, "Xəbərlərin gələcəyi" devizi müasir dövrümüz üçün düzgün seçilib. Belə ki, xəbərlərin gələcəyi elə beşəriyyətin gələcəyidir. Prezident qeyd etdi ki, yeni texnologiyalar, rəqəmsallaşma KİV üçün həm yeni imkanlar, həm də yeni çağırışlar yaradır. Bu gün sosial media dayanmadan inkişaf edir. Bu, həmçinin feyk xəbərlərin yayılmasına yol açır. Yəni, operativlik obyektivliyə güclü təsir edir, ziyan vurur. "VI Konqres qarşılaşdığımız bu çağırışlara cavab vermək üçün gözəl imkandır. Feyk xəbərlərlə mübarizə təkcə informasiya agentliklərinin deyil, bütün bəşəriyyətin vəzifəsi olmalıdır", - deyə Prezident Rumen Radev əlavə edib.

Böyük Britaniyanın Press Association agentliyinin baş icraçı direktoru Klayv Marşal xəbər agentlikləri qarşısında duran problemlərə toxunub. Bildirib ki, sosial şəbəkələrin inkişafı, həmçinin bir sıra problemlər yaradır. Belə ki, sosial şəbəkələr reklam yerləşdirməklə xəbər agentliklərindən qat-qat çox qazanır, habelə feyk xəbərlər bu platformalarda daha tez yayılır. Feyk xəbərlər cəmiyyət üçün ciddi təhdid yaradır. K.Marşal, həmçinin jurnalistlərin üzləşdiyi problemlərə toxunaraq təəssüflə bildirib ki, müasir dövrdə vəzifə borclarını yerinə yetirən media mənsubları təhdidlərlə qarşılaşır, bəzən qətlə yetirilirlər. Bu isə yolverilməzdir. Çünki jurnalist vəzifə borcunu yerinə yetirməklə cəmiyyəti məlumatlandırır.

AZƏRTAC-ın İdarə Heyətinin sədri, Dünya Xəbər Agentlikləri Konqresinin prezidenti Aslan Aslanov çıxış edərək bildirdi ki, Dünya Xəbər Agentliklərinin V Konqresi üç il əvvəl - 2016-cı ilin noyabrında AZƏRTAC-ın və Heydər Əliyev Fondunun təşkilatçılığı ilə Bakıda keçirilmişdi. Azərbaycan Prezidenti İlham Əliyevin Konqresin açılış mərasimində iştirakı və geniş nitq söyləməsi, sonradan iştirakçıların bir qrupu ilə görüşməsi Azərbaycan dövlətinin mediaya göstərdiyi diqqətin, verdiyi önəmin göstəricisi kimi indi də xatırlanır. Belə bir müsbət atmosferdə keçən toplantıda biz dövrün qarşımıza çıxardığı çağırışları müzakirə etmişdik, baxışlarımızı bölüşmüşdük. Bizim toxunduğumuz məsələlər sosial media, innovasiyalar, multimedia jurnalistikası kimi aktual mövzular idi ki, onlar artıq agentliklərin gündəlik həyatının bir hissəsinə çevrilib. Əslində, 3 il tarixdə kiçik bir zaman kəsiyidir, lakin bu illər ərzində müasir texnologiyalar çox sürətlə dəyişib və bu, bizim fəaliyyətimizə də təsir edərək ümumilikdə jurnalistikanın dəyişməsini şərtləndirib.

Altıncı Konqresin mövzusunun əhəmiyyətinə toxunan Aslan Aslanov dedi: "Xəbərlərin gələcəyi bu gün hamını düşündürür. Ola bilər ki, kimsə bununla bağlı nikbin, kimsə bədbin fikirdədir. Şəxsən mən belə hesab edirəm ki, xəbərin gələcəyi informasiya agentliklərinin, yəni, bizim əlimizdədir. Odur ki, bu Konqresin mövzuları müasir dövrün tələbləri nəzərə alınaraq agentliklərin perspektivlərinin müzakirəsi ətrafında qurulacaq. Yuxarıda qeyd etdiyim bütün amillər müzakirələrimizin mərkəzində olacaq. Elə Konqresin də qlobal məqsədi dünyanın hər bir nöqtəsindəki agentliyin yeniliklərlə, həmçinin bu sahədə toplanmış təcrübə ilə tanış olmasını təmin etməkdir".

Dünya Xəbər Agentlikləri Konqresinin ən etibarlı informasiya istehsalçılarını birləşdirən təşkilat olduğunu diqqətə çatdıran Konqresin prezidenti A.Aslanov qeyd etdi ki, biz də mövqeyi saxlamaqla yanaşı, gərək onu daha da möhkəmləndirək və indiki mürəkkəb informasiya mühitində məhz bizim etibarlı tərəfdaş olduğumuzu media bazarı iştirakçılarına çatdıraq. Bu gün Dünya Xəbər Agentlikləri Konqresinə sədrlik AZƏRTAC-dan BTA-ya keçir. Əminəm ki, başladığımız işləri yenə birlikdə davam etdirəcək, xəbərlərin gələcəyinə etibarlı təminat yaradacağıq.

Bolqarıstanın Mədəniyyət naziri Boil Banov çıxış edərək bildirdi ki, müasir dövrdə feyk xəbərlərin qarşısının alınması, müəllif hüququnun qorunması ciddi müzakirə mövzusu olmalı və bu istiqamətdə düşünülmüş addımlar atılmalıdır. O, VI Konqresin bu istiqamətdə məsələləri müzakirə etmək üçün əhəmiyyətli platforma olduğuna əminliyini ifadə etdi, tədbirin işinə uğurlar arzuladı.

Almaniyanın DPA agentliyinin baş icraçı direktoru, Avropa Xəbər Agentlikləri Alyansının prezidenti Piter Krops və digər çıxış edənlər müasir dövrdə media sahəsində əldə olunan uğurlardan, bu sahənin qarşılaşdığı problemlərdən və onların həlli yollarından danışdılar, müxtəlif təqdimatlarla çıxış etdilər.

Rəsmi hissədən sonra Konqres işini "Xəbər agentliklərinin sahiblik modelləri" mövzusunda panel iclasla davam etdirdi.

Tədbirdə Azərbaycandan Trend informasiya agentliyinin baş direktoru İlqar Hüseynov da iştirak edib.

Xatırladaq ki, Dünya Xəbər Agentlikləri Konqresi Rusiyanın TASS agentliyinin təşəbbüsü ilə ilk dəfə 2004-cü il sentyabrın 24-25-də Moskvada baş tutub. Dünya Xəbər Agentliklərinin V Konqresi 2016-cı ildə AZƏRTAC-ın və Heydər Əliyev Fondunun birgə təşkilatçılığı ilə Bakıda keçirilib.

# İlahiyyat İnstitutu və Mənəvi Dəyərlərin Təbliği Fonduna yeni bina verilib



İlahiyyat İnstitutu və Mənəvi Dəyərlərin Təbliği Fonduna yeni bina veriləcək.

Trend-in məlumatına görə, bunu Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin sədri Mübariz Qurbanlı deyib.

Komitə sədri bildirib ki, Prezident İlham Əliyevin sərəncamı ilə İlahiyyat İnstitutuna yeni bina verilib:

"Hazırda həmin binada təmir işləri aparılır. İlahiyyat İnstitutunun yeni binası Bakı şəhəri, Yasamal rayonu, Məhəmməd Naxçıvani küçəsində yerləşir. Bina 5 mərtəbədən ibarətdir. Binada təmir işləri yekunlaşdıqdan sonra tədris orada aparılacaq".

M.Qurbanlı əlavə edib ki, həmin binada Mənəvi Dəyərlərin Təbliği Fondu da yerləşəcək:

"Hazırda Mənəvi Dəyərlərin Təbliği Fondu kirayə binada yerləşir. Bundan sonra hər qurum eyni binada yerləşəcək. Amma onların girişi ayrı-ayrı yerlərdən olacaq".

# Blokçeyn texnologiyalarının tətbiqi ekoloji tarazlığı pozur?



"Blokçeyn texnologiyalarını tətbiq edərkən ehtiyatlı olmalıyıq. Çünki onun fəsadları ola bilər. Bu baxımdan onun ətraf mühitə olan mənfi təsirləri də nəzərə alınmalıdır".

"İki sahil" xəbər verir ki, bunu Avropa Yenidənqurma və İnkişaf Bankının dayanıqlı nəqliyyat üzrə əsas sektorunun müdiri Tara Şirvani Bakıda Ümumdünya Gömrük Təşkilatının "İnformasiya Texnologiyaları və Texnoloji İnnovasiyalar Konfransı və Sərgisi" çərçivəsində keçirilən "Gələcəyin yaşıl nəqliyyat və logistikasına sərhəd idarəçiliyinin münasibəti" adlı sessiyasında deyib.

T. Şirvaninin sözlərinə görə, blokçeyn texnologiyaları çərçivəsində serverlər vasitəsilə məlumatların ötürülməsi üçün böyük həcmdə enerji tələb olunur: "Ona görə də ölkələr blokçeyn texnologiyalarından istifadə etmək üçün böyük həcmdə enerji sərf etməyə məcbur olacaqlar. Bir misal deyim ki, təkcə son bir ildə bitkoin əməliyyatlarına sərf edilmiş enerjinin həcmi İrlandiyanın illik elektrik enerjisinə olan tələbatından çox olub. Eyni zamanda, bir bitkoin əməliyyatı üçün ABŞ-dakı 31 evin istehlak etdiyi həcmdə elektrik enerjisinə ehtiyac var. Araşdırmalar göstərir ki, iqtisadi potensialı böyük olan bu cür texnologiyaların hazırkı templə artacağı təqdirdə Yer kürəsinin isinmə temperaturu yaxın 1-2-ci onilliklərdə hər il 1,5 dərəcə artacaq".



Niderland Gömrük Xidmətinin Ticarət Əlaqələri Departamentinin rəhbəri Frank Heijman blokçeyn texnologiyalarından bəhs edərək onun heç də bütün problemləri həll etmədiyini bildirib: "Biz ona görə bunu qəbul edirik ki, kimsə bu barədə nəsə deyib".

Sloveniya Logistik Assosiasiyasının prezidenti İqor Zula isə deyib ki, bu cür texnologiyaların tətbiqi zamanı ətraf mühitdən daha çox onun maliyyə tutumu aktual olur.

Sessiyada çıxış edən Azərbaycan Respublikası Dövlət Gömrük Komitəsinin sədri, gömrük xidməti general-leytenantı Səfər Mehdiyev blokçeyn texnologiyalarının istifadəsinə sərf olunacaq enerji məsələsinə münasibət bildirərək bu yeniliyin sayəsində milyonlarla, milyardlarla yazılan gömrük bəyannamələrinin aradan qaldırılması ilə böyük həcmdə elektrik enerjisinə qənaət ediləcəyini vurğulayıb: "Əgər biz ticarət asanlaşdırılmasını, şəffaflıq istəyiriksə, buna təkcə maliyyə nöqteyi-nəzərdən baxmamalıyıq. Bu gün müxtəlif ölkələrdə blokçeyn texnologiyalarına qaçaqmalçılığın qarşısının alınması, daha çox vergi toplanması məqsədilə üstünlük verilir".

S.Mehdiyev onu da vurğulayıb ki, blokçeyn texnologiyalarının inkişaf etdirilməsinə nail olmaq üçün istər Avropa Yenidənqurma və İnkişaf Bankı, istərsə də digər maliyyə institutları bu layihələrə dəstək verməlidirlər: "Blokçeyn texnologiyalarının üstünlüklərini bütün xarici iqtisadi fəaliyyət iştirakçıları görməlidirlər və bu üstünlüklər digər məsələlərin həllində təşviq edilməlidir. Bu texnologiyanın inkişafını təmin edəcək metodlardan biri ticarət zəncirindəki bütün tərəflərin buraya cəlb edilməsini stimullaşdıracaq standartı ortaya qoymaqdan ibarətdir. Hesab edirəm ki, beynəlxalq maliyyə institutları tərəfindən blokçeyn texnologiyalarının dəstəklənməsi sayı sürətlə artmaqda olan gömrük bəyannamələrinin yaradacağı çətinliklərin qarşısını almış olacaq".

**Ceyhun Piriyev,**
***"İki sahil"***

# Parisdə UNESCO-nun baş qərargahında Bakı Dövlət Universitetinin 100 illiyi təntənə ilə qeyd olunub




**Azərbaycan Prezidenti İlham Əliyevin 2017-ci il 14 noyabr tarixli Sərəncamı əsasında Bakı Dövlət Universitetinin 100 illik yubileyi geniş miqyasda qeyd olunur.**

AZƏRTAC xəbər verir ki, Parisdə UNESCO-nun baş qərargahında da Bakı Dövlət Universitetinin (BDU) 100 illik yubileyi təntənə ilə keçirilib.

Yubiley tədbirinə Təhsil naziri Ceyhun Bayramov, Mədəniyyət nazirinin müavini Sevda Məmmədəliyeva, UNESCO üzrə Azərbaycan Milli Komissiyasının baş katibi Elnur Sultanov, BDU-nun rektoru Elçin Babayev, Fransadakı səfirimiz Rəhman Mustafayev, UNESCO yanında daimi nümayəndəliyimizin rəhbəri, səfir Anar Kərimov, Təhsil Nazirliyi, BDU və Mədəniyyət Nazirliyinin nümayəndə heyəti, UNESCO yanında daimi nümayəndəliklərin rəhbərləri, Fransada akkreditə olunmuş diplomatik korpusun, işgüzar dairələrin, mədəniyyət və elm nümayəndələri, bu ölkədəki azərbaycanlı icmasının nümayəndələri qatılıb.

Tədbirdə UNESCO yanında daimi nümayəndəliyimizin rəhbəri, səfir Anar Kərimov, Təhsil naziri Ceyhun Bayramov, BDU-nun rektoru Elçin Babayev çıxış ediblər.

Natiqlər ölkəmizin tarixi, onun nailiyyətlərindən danışaraq, Bakı Dövlət Universitetini onun əsas nailiyyətlərindən biri olduğunu diqqətə çatdırıblar. BDU ilə fəxr etdiklərini bildirərək, onun regionda ilk universitet, müsəlman Şərqində isə ilk Avropa tipli ali məktəb olduğunu vurğulayıblar. BDU-nun məzunlarından söz açaraq, onların tanınmış şəxsiyyətlər olduğunu bildiriblər. 1969-cu ildə universitetin 50 illiyində onun dünya şöhrətli məzunu ümummilli lider Heydər Əliyev bildirib ki, universitetin yaradılması vətənpərvər qüvvələrin qələbəsi idi, gənc azərbaycanlılara dünya mədəniyyətinin və elminin qapılarını açmaq, onların təhsil alması məqsədilə bu qüvvələrin bir neçə illik mübarizəsinin nəticəsidir. Həmçinin BDU-nun məzunları arasında fizika üzrə Nobel mükafatı laureatı Lev Landau, Yusif Məmmədəliyev, Aida İmanquliyevanın adları səsləndirilib.

Dayanıqlı inkişafın reallaşmasında təhsilin roluna, bu baxımdan BMT və UNESCO-nun narahatlığı, ölkəmizin UNESCO vasitəsi ilə bəzi ölkələrdə təhsilin inkişafına verdiyi töhfələr, Azərbaycan-UNESCO əlaqələrinə Birinci vitse-prezident Mehriban Əliyevanın töhfələri, Qoşulmama Hərəkatına və İslam Əməkdaşlığı təşkilatına üzv olan bir çox ölkələrin gənclərinin ölkəmizdə təhsil ala bilməsi üçün Azərbaycan Prezidentinin




müvafiq Sərəncamından danışılıb.

UNESCO baş direktorunun Afrika departamenti üzrə müavini Firmin Eduard Matoko qurumun baş direktorunun adından tədbir iştirakçılarını salamlayıb. O, ölkəmizlə UNESCO arasındakı əlaqələrə toxunub. Bugünkü tədbirin mədəni irs, dialoq, mədəniyyət müxtəlifliyi ruhunu əks etdirdiyini diqqətə çatdırıb. Tolerantlıq, dialoq, mədəniyyət müxtəlifliyi, qarşılıqlı anlaşma və xalqlar arasında həmrəylik məkanında olan BDU-nun elmi təşviq etməsindən danışıb. Bu gün BDU-nun afrikalı məzunlarının ölkələrində mühüm vəzifələrdə çalışdıqlarını qeyd edib. Ölkəmizin UNESCO-ya verdiyi töhfələri yüksək qiymətləndirib.

Tədbirdə BDU-nun 100 illik tarixini dolğun əks etdirən videoçarx göstərilib. UNESCO-nun binasının foyesində BDU-nun 100 illik fəaliyyətini əks etdirən tarixi və müasir şəkillərdən ibarət sərgi nümayiş olunub.

Tədbirin mədəniyyət proqramı çərçivəsində konsert təşkil edilib. Konsertdə Üzeyir Hacibəyli adına Bakı Musiqi Akademiyasının və Almaniya Münxen Yeni Filarmoniyasının Simfonik Orkestrinin baş dirijoru, Yevgeni Svetlanov adına IV Beynəlxalq dirijorlar müsabiqəsinin laureatı Fuad İbrahimovun dirijorluğu, Üzeyir Hacibəyli adına Bakı Musiqi Akademiyasının Gənclər Kamera Orkestrinin müşayiəti ilə gənc musiqiçilərimizin ifası dinlənilib. Beynəlxalq müsabiqələr laureatı Elvin Xoca Qəniyev (skripka), Etibar Əsədli (piano), Vurğun Vəkilov (piano), Ağarəhim Quliyev (fleyta), Məhərrəm Hüseynov beynəlxalq və Azərbaycan bəstəkarlarının əsərlərini ifa ediblər. Onların ifası dinləyicilər tərəfindən böyük rəğbət və alqışlarla qarşılanıb.

Konsertin sonunda Azərbaycan Respublikasının dövlət himni səsləndirilib və bütün zal ayağa qalxıb.

Xatırladaq ki, UNESCO-nun İcraiyyə Şurası tərəfindən 2018-2019-cu illər üzrə yubileylər siyahısına Bakı Dövlət Universitetinin 100 illik yubileyinin qeyd edilməsi təklifi Baş Konfransın Parisdə keçirilən 39-cu sessiyasında müsbət dəyərləndirilib və bu il yubiley tədbirlərinin qeyd olunması qərara alınıb.

# UNEC-də Milli Qurtuluş Günü qeyd olunub

UNEC-də 15 İyun - Milli Qurtuluş Gününə həsr olunan tədbir keçirilib. Tədbir Dövlət Himninin səsləndirilməsi ilə başlayıb. Sonra UNEC ilə Bilik Fondunun sifarişi əsasında "Səs" Media Qrupunun hazırladığı "Milli Qurtuluşdan intibaha" filmi nümayiş olunub.

Tədbirdə 1992-ci ildə Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri olan Heydər Əliyevi Bakıya səsləyən, onun hakimiyyətə qayıdışı üçün müraciətə imza atan, Yeni Azərbaycan Partiyasının "qızıl fondu" elan olunan 91 nəfər tanınmış ziyalılarından - Əməkdar elm xadimi, "Şöhrət" ordenli professor, ictimai-siyasi xadim Şahlar Əsgərov və YAP Siyasi Şurasının üzvü, "İki sahil" qəzetinin baş redaktoru Vüqar Rəhimzadə iştirak ediblər.



UNEC-in rektoru, professor Ədalət Muradov Azərbaycanın müstəqillik tarixinin ən şanlı səhifələrindən biri olan Milli Qurtuluş Gününün əhəmiyyətindən danışıb. Rektor Azərbaycan dövlətinin və dövlətçiliyinin real təhlükə ilə üzbəüz qaldığı hamıdan tez dərk edən 91 ziyalının ümummilli lider Heydər Əliyevin yenidən hakimiyyətə qayıdışında müstəsna rol oynadıqlarını bildirib. Ümummilli lider Heydər Əliyev xalqın təkidi ilə yenidən hakimiyyətə qayıtdıqdan sonra Azərbaycanın qısa zamanda iqtisadi sabitlik və inkişafa qədəm qoyduğunu diqqətə çatdırıb.



Professor Şahlar Əsgərov ümummilli lider Heydər Əliyevin müstəqilliyin əldə olunmasındakı misilsiz xidmətlərindən danışıb. Bu dahi şəxsiyyətin hər bir çıxışı, hər bir kəlamının dərin məntiqə söykənməklə, böyük bir fəlsəfə daşıdığını bildirən Ş.Əsgərov Ulu Öndərin Azərbaycan xalqının, dövlətinin inkişafı üçün var gücü ilə çalışan, öz həyatını qurban verməyə hazır olan dahi şəxsiyyət olduğunu qeyd edib. Bu dahi şəxsiyyətin fəaliyyəti dövründə Azərbaycan dövlətinin yaşaması, inkişafı üçün gərəkli olan bütün işləri gördüyünü, xaosun qarşısını aldığını, dövləti inkişaf yoluna çıxardığını deyən professor bugünkü müstəqil Azərbaycan dövlətinin məhz Heydər Əliyevin şah əsəri olduğunu vurğulayıb.







YAP Siyasi Şurasının üzvü, "İki sahil" qəzetinin baş redaktoru Vüqar Rəhimzadə xalqın təkidli tələbi ilə ikinci dəfə hakimiyyətə qayıdan Heydər Əliyevin iyunun 15-də Azərbaycan Ali Sovetinin sədri seçildiyini və Ulu Öndərin böyük risklərə baxmayaraq, xalqın qurtuluşu missiyasını cəsarətlə öz üzərinə götürdüyünü, bununla da ölkədə uzun illər davam edən gərginlik və qarşıdurmanın səngidiyini, respublikamızın vətəndaş müharibəsindən və parçalanma təhlükəsindən xilas olduğunu söyləyib. V.Rəhimzadə bu gün milli qurtuluş ideologiyasının təntənəsinin müstəqil respublikamızın davamlı inkişafında özünü büruzə verdiyini, regionda və dünyada Azərbaycanın nüfuzunu daha da artırdığını qeyd edib.

İqtisadiyyatın tənzimlənməsi kafedrasının müdiri, professor Məhiş Əhmədov ümummilli lider Heydər Əliyevin iqtisadi siyasətindən, milli iqtisadiyyatın təhlükəsizliyinin təmin olunması istiqamətində apardığı uğurlu islahatlardan danışıb. Bu siyasət nəticəsində bu gün Azərbaycanın qlobal böhrandan çıxan lider ölkələr sırasında olduğunu qeyd edib.

Həmin günlərin canlı şahidi olan və ulu öndər Heydər Əliyevin yenidən hakimiyyətə qayıdışında yaxından iştirak edən Sosial inkişaf iqtisadiyyatı və qiymətləndirmə kafedrasının müdiri, professor Əli Əlirzayev Azərbaycan xalqını Qurtuluşa aparan yoldan danışıb.

Sonda Yeni Azərbaycan Partiyası sıralarına üzv olan UNEC tələbələrinə üzvlük vəsiqələri təqdim edilib.

***Zamin Məmmədov, "İki sahil"***

# Ulu Öndərə ümumxalq məhəbbəti sonsuzdur

**15 İyun- Milli Qurtuluş Günü respublikamızın hər yerində əlamətdar hadisə kimi qeyd olunur. “Modern İnkişaf və Ailə” İctimai Birliyinin tarixi gün münasibətilə keçirdiyi tədbirdə də o dövrdə baş verən , müasir Azərbaycanın dövlətçilik tarixində xüsusi yeri və əhəmiyyəti olan ictimai-siyasi hadisələrdən bəhs olundu.**





“Modern İnkişaf və Ailə” İctimai Birliyinin sədri, YAP Qadınlar Şurası İdarə Heyətinin üzvü Zərifə Quliyeva Azərbaycanı dağılmaq təhlükəsindən qurtaran ulu öndər Heydər Əliyevin siyasətə qayıdışı ilə tarixə yazılan Qurtuluş Gününü müstəqilliyimizin əbədiyyət salnaməsi adlandırdı:

- O dövrdə Azərbaycanda baş verən mürəkkəb hadisələri xatırlamamaq olmaz. Həmin günlərdə hakimiyyətsizliyi yaradan səbəbləri sadalamaqla, ölkədə mövcud olan xaos, mürəkkəb ictimai-siyasi vəziyyət barədə təsəvvür yaratmaqla Ulu Öndərin xilaskarlıq missiyasını dəyərləndirmək hər bir vətəndaşın borcudur. Ermənilərin Azərbaycana qarşı torpaq iddiası, elan olunmamış müharibə ilə eyni dövrə təsadüf edən hakimiyyətsizlik, separatçılıq həqiqi mənada kövrək müstəqilliyimizi təhlükə altına qoymuşdu. Dağlıq Qarabağda başlanan mitinqlər, Topxana hadisəsi, SSRİ-nin süqutu, səriştəsiz, səbatsız, heç bir dövlətçilik təcrübəsi olmayanların hakimiyyəti zorla zəbt etməsi vətəndaşların sabaha ümidini qırmışdı. Separatçı çağırışlar, başqalarının diktəsi ilə səslənən bəyanatlar çox təhlükəli olmaqla Azərbaycanı parçalanmaq təhlükəsi ilə üz-üzə qoymuşdu. Belə bir vaxtda çıxış yolu axtaran xalq üzünü Azərbaycan Xalq Cümhuriyyətinin dövlət atributlarını bərpa edən, Naxçıvan MR Ali Məclisinin sədri olsa da bütünlükdə Azərbaycanın suverenliyi naminə tarixi xidmətlər göstərən ulu öndər Heydər Əliyevə üz tutdu. Ölkəni parçalanmaq təhlükəsindən qurtarmağa qadir yeganə lider olan ulu öndər Heydər Əliyevin ölkəni düşdüyü ağır vəziyyətdən çıxarması üçün Bakıya gəlməsi tarixi zərurətə çevrildi. Xalqın müraciətini Azərbaycanın müstəqilliyinin qorunması kimi dəyərləndirən Ulu Öndər Bakıya döndü. Onun siyasətə qayıdışı ilə Azərbaycan siyasi, iqtisadi böhrandan xilas olundu. Ölkədə inkişaf, quruculuq dövrü başlandı. Ordu quruculuğuna diqqət artırıldı.

Milli Məclisin deputatları, Xalq yazıçısı Elmira Axundova, İlham Məmmədov, YAP Siyasi Şurasının üzvləri, Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin sədr müavini Sədaqət Qəhrəmanova, Bakı Dövlət Universitetinin professoru İradə Hüseynova və başqaları çıxış edərək iqtisadi böhranın əhalinin həyat tərzini dözülməz hala saldığı, mütəşəkkil ordunun olmadığı, könüllü dəstələrin ayrı-ayrı partiyalara, şəxslərə xidmət göstərdiyi o illərdəki çətinlikləri xarakterizə edərək bildirdilər ki, belə ağır vəziyyətdə olan respublikada nizam-intizam, sabitlik yaratmağa yalnız ulu öndər Heydər Əliyev kimi təcrübəli siyasətçinin, liderin gücü çatardı.

Tədbir bədii hissə ilə davam etdirildi.

**Xuraman İsmayılqızı,**
***“İki sahil”***

# Bakı Slavyan Universitetində mediatur

İyunun 13-də Bakı Slavyan Universitetində (BSU) aparıcı KİV nümayəndələri və təhsil ekspertlərinin iştirakı ilə 2018-2019-cu tədris ilinin yay imtahan sessiyasının monitorinqini aparmaq üçün mediatur təşkil olunub. Tədbirə aparıcı KİV nümayəndələrindən “Azərbaycan”, “Azərbaycan müəllimi”, “İki sahil”, “Səs”, “Kaspi” qəzetlərinin, AZƏRTAC Dövlət İnformasiya Agentliyi, Trend İnformasiya Agentliyi, Azadinform.az, Faktinfo.az, Eduaz.az, Tehsilpress.az, Nuh.az, Media-tv.az saytlarının nümayəndələri, təhsil ekspertlərindən Kamran Əsədov, politoloq Rauf Rəcəbov qatılıblar.





Qonaqlar əvvəlcə 3-cü, 4-cü, 5-ci mərtəbələrdə yerləşən auditoriyalarda imtahanların gedişini izləyiblər. Onlar burada kameraların, ağıllı lövhələrin də iş prinsipləri ilə tanış olublar. Jurnalistlər imtahanların gedişinə mane olmamaq şərti ilə imtahan aparan müəllim və nəzarətçilərdən müsahibə alıblar.

Sonra müşahidəçilər Operativ qərargahın işi ilə tanış olublar. BSU-nun rektoru, professor Nurlana Əliyeva onlara imtahan sessiyası ərəfəsində universitetdə aparılan işlər, imtahanlara hazırlıq barədə məlumat verib. N.Əliyeva BSU-da 2018-2019-cu tədris ilinin yaz imtahan sessiyasının uğurla davam etdiyini bildirib. Rektor qeyd edib ki, təhsil nazirinin imtahan sessiyasının təşkili və keçirilməsi barədə əmrinə əsasən, imtahanlar mövcud qaydalara uyğun təşkil edilir, tələbələrin biliyinin qiymətləndirilməsində şəffaflıq və obyektivlik təmin olunur.



N.Əliyeva vurğulayıb ki, BSU-da artıq 279 fənn üzrə imtahan təşkil olunub. Hazırda universitetin əsas və ikinci tədris binasında ümumi 55 auditoriyada imtahan keçirildiyini diqqətə çatdıran N.Əliyeva məlumat verib ki, bu imtahanlardan 36-sı əsas binada, 19-u ikinci tədris binasında aparılır. Rektor imtahan sessiyası ərəfəsində hər bir kursun tələbələri ilə ayrı-ayrılıqda görüş keçirdiyini, onlara öz tövsiyələrini verdiyini, imtahanlarda biliyin yeganə meyar olmasının izah edildiyini bildirib. O, imtahanlara hazırlıq üçün universitetdə hər cür lazımi şəraitin yaradıldığını, məsləhət saatlarının keçirildiyini qeyd edib. Rektor imtahanlarla bağlı məsələlərin əvvəlcə universitetin Elmi Şurasında müzakirə olunduğunu da diqqətə çatdırıb.

O, imtahan prosesində operativliyin təmin edilməsi və şəffaflığın artırılması məqsədilə BSU-nun tədris işləri üzrə portalının “Modul 3” bölməsində bütün kurslar üzrə imtahanların nəticələrinin dərhal elan olunduğunu deyib. Rektor adıçəkilən saytda yaradılmış onlayn əlaqə bölməsindən təkcə tələbələrin deyil, valideynlərin də istifadə edərək onları maraqlandıran hər bir sualla bağlı dolğun cavab ala biləcəklərini, imtahan qərargahı ilə birbaşa əlaqə yarada biləcəklərini söyləyib. N.Əliyeva diqqətə çatdırıb ki, universitetdə imtahan sessiyasının mövcud qaydalara uyğun təşkil edilməsi, tələbələrin biliyinin qiymətləndirilməsində şəffaflığın və obyektivliyin təmin olunması, daxil olan şikayətlərin qısa zamanda araşdırılıb, müvafiq qərarların qəbul edilməsi üçün Operativ qərargah və Münaqişə komissiyası yaradılıb. O qeyd edib ki, yaz imtahan sessiyasında BSU-da tələbələr üçün hər il olduğu kimi, bu il də imtahan qərargahı ilə canlı bağlantı imkanı yaradılır.



Rektor müşahidəçilərə qərargahın iş prinsipi, tətbiq olunan yeniliklər, şikayətlərin qəbul edilməsi, cavablandırılması və s. barədə ətraflı məlumat verib. O, tələbələrin şikayətlərinə onların özlərinin və valideynlərinin iştirakı ilə baxıldığını, buraxılmış səhvlərin bir-bir izah edildiyini, bir sözlə, ədalətə, obyektivliyə tam zəmanət verildiyini vurğulayıb. Rektor qərargahın iş rejimi barədə də məlumat verib. Bildirib ki, qərargah imtahandan öncə, yeni saat 08:30-da işə başlayır. Qeyd edib ki, 24 may 2019-cu il tarixli 69 saylı əmrə əsasən yaradılmış qərargah 13 nəfərdən ibarətdir. Rektorun sözlərinə görə, imtahandan əvvəl qərargah üzvləri tərəfindən auditoriyalara baxış keçirilir, çatışmazlıqlar dərhal aradan qaldırılır. O, imtahanlarla bağlı şikayətlərə əvvəlcə dekanlıq nəzdində fəaliyyət göstərən Münaqişə komissiyalarında məsələ burada həllini tapmadığı təqdirdə isə universitetin Münaqişə komissiyasında araşdırıldığını bildirir. N.Əliyeva qeyd edib ki, iyunun 1-dən etibarən başlayan imtahanlar iyulun 6-dək davam edəcək.

Professor Nurlana Əliyeva BSU-da tədrisin inkişafı istiqamətində görülən işlər barədə də qonaqlara məlumat verib. Rektor universitetin beynəlxalq əlaqələrinin daha da genişləndiyini diqqətə çatdıraraq hazırda BSU-nun 113 xarici universitetlə əməkdaşlığa dair müqaviləsinin olduğunu bildirib. Qeyd edib ki, bu müqavilələr çərçivəsində xarici universitetlərlə müəllim-tələbə mübadiləsi, habelə beynəlxalq elmi konfranslar həyata keçirilir, elmi məcmuələr nəşr olunur. N.Əliyeva BSU-nun son üç ildə davamlı olaraq respublikada rus dilinin tədrisinə, rusdilli təhsilə, Rusiya-Azərbaycan əlaqələrinin inkişafına və qorunmasına verdiyi töhfələrdən söz açıb. Rektor may ayında MAPRYAL-ın Rəyasət Heyətinin üzvü seçilməsini də bunun bariz nümunəsi kimi dəyərləndirib.

Görüşün sonunda jurnalistlərin imtahan sessiyası ilə bağlı təəssüratları dinlənilib.

✍ **Şəmsiyyə Əliqızı,**
**Vüsal Cahanov (foto)**
***“İki sahil”***

# Müstəqil Azərbaycan ulu öndər Heydər Əliyevin ideyaları əsasında inkişaf edir

**Milli Məclisin Səhiyyə komitəsinin sədri, akademik Əhliman Əmiraslanovun www.yap.org.az saytına müsahibəsi**

*- Əhliman müəllim, 1993-cü ilin iyun ayında ulu öndər Heydər Əliyevin ikinci dəfə Azərbaycanda hakimiyyətə gələrək xilaskarlıq missiyasını yerinə yetirməsi xalqımız tərəfindən dövlətimizin qurtuluşu kimi qeyd olunur. Sizcə, 15 İyun - Milli Qurtuluş Gününün tariximizdə əhəmiyyəti nədən ibarətdir?*



- Ulu öndər Heydər Əliyevin 1993-cü ilin iyun ayının 15-də yenidən Azərbaycana rəhbərliyə qayıdışından sonra Azərbaycanda inkişafın yeni mərhələsi başlandı. XX əsrin 80-ci illərinin sonu, 90-cı illərinin əvvəllərində ermənilərin Azərbaycan torpaqlarının 20 faizini işğal etdikdən sonra bütün sahələrdə tənəzzül yaranmışdı. İllərlə Ulu Öndər tərəfindən çətinliklə yaradılanlar baxımsızlıq üzündən asanlıqla dağıdılırdı. Xoşbəxtlikdən bu, uzun sürmədi və Ulu Öndərin yenidən hakimiyyətə gəlişi pərakəndəliyin, dağıntıların qarşısını aldı. Həmin dövr üçün Azərbaycan cəmiyyətindəki anarxist qüvvələrin zərərsizləşdirilməsindən sonra Ulu Öndər siyasi, hüquqi, iqtisadi, sosial sahədə demokratik islahatlar proqramının həyata keçirilməsinə start verdi.

Heydər Əliyevin Azərbaycan dövlətçiliyi qarşısında başlıca xidmətləri sırasında dövlət müstəqilliyinin qorunub saxlanılması və inkişaf etdirilməsi istiqamətində görülən işlərdən biri kimi dövlət quruculuğunun hüquqi bazasının yaradılması idi. 1995-ci ildə qəbul edilmiş Konstitusiya Azərbaycan Respublikasının dövlət quruculuğunun əsaslarını qoydu. Azərbaycan demokratik, hüquqi, dünyəvi dövlət kimi ilk dəfə olaraq insan hüquqlarının prioritetliyini və hakimiyyət bölgüsünü özünün gələcək inkişafı kimi seçdi. Ulu Öndərin birbaşa təşəbbüsü ilə hazırlanmış və ümumxalq səsverməsi nəticəsində qəbul olunmuş bu sənəd müstəqil Azərbaycanın ilk Konstitusiyası kimi tarixə yazıldı.1995-ci ildə müstəqil Azərbaycanın ilk parlamentinə keçirilən seçkilər isə dövlət müstəqilliyinin möhkəmləndirilməsi prosesinin hüquqi bazasının yaradılmasına daha geniş imkanlar yaratdı. Heydər Əliyev böyük şəxsiyyət olaraq cəmiyyətin sivil inkişafını hər bir fərdin maraq və mənafelərinin etibarlı təminatında görür və buna xidmət edən bütün zəruri tədbirləri həyata keçirirdi. Onun gərgin səyləri nəticəsində hüquqi, demokratik, dünyəvi dövlət quruculuğu yolu ilə irəliləyən müstəqil Azərbaycanda vətəndaş cəmiyyətinin formalaşması, insanların azad, sərbəst yaşaması, qanunun aliliyinin təmin edilməsi məqsədi ilə ən yüksək tələblərə cavab verən normativ-hüquqi baza yaradıldı.

*- Sizcə, qurtuluş məfkurəsi Azərbaycan xalqına və dövlətinə nə verdi?*

- Müasir müstəqil Azərbaycan dövlətinin hazırkı inkişaf mərhələsinə çatmasında bir çox amillər müstəsna rol oynamışdır. Bu sırada şəxsiyyət-lider amili mühüm yer tutur. Şübhəsiz ki, Azərbaycan xalqı və dövlətinin tarixin səhnəsində özünəməxsus yer tutmasını, gerçək müstəqilliyini əldə edərək qoruyub saxlamasını təmin edən dahi şəxsiyyət ulu öndər Heydər Əliyev olmuşdur. XX əsr Azərbaycan tarixinin fenomen şəxsiyyəti olan Ulu Öndər xalqı tarixən can atdığı müstəqillik idealına qovuşdurub, mütərəqqi ənənələr əsasında yeni dövlətçilik konsepsiyasını irəli sürübdür. Ümummilli Lider qlobal proseslər fonunda tam fərqli - xalqın demokratik idealları, milli dövlətçilik təfəkkürü ilə uzlaşan, hər bir mərhələ üçün konkret fəaliyyət prioritetləri, taktiki və strateji məqsədləri olan milli inkişaf strategiyasını irəli sürərək uğurla həyata keçiribdir. Ümummilli Lider 1993-cü ildən dövlət-vətəndaş münasibətlərinin hüquq müstəvisində tənzimləndiyi, insan hüquq və azadlıqlarının yüksək səviyyədə qorunduğu, humanizm ideyalarının möhkəm təmələ çevrildiyi sivil cəmiyyətin formalaşdırılması, idarəçilikdə demokratik ənənələrin bərqərar olması naminə misilsiz xidmətlər göstəribdir.

Ümummilli Liderin şəxsiyyət kimi böyüklüyü həm də Onun bütün idarəçiliyi boyu azərbaycanlı olması ilə fəxr edib qürur duyması, xalqın milli mənlik şüurunu, özünüdərk hissini, mənəvi dəyərlərə bağlılığını gücləndirmək əzmini nümayiş etdirməsində idi. Heydər Əliyevin bütün zəngin və mənalı ömrü Azərbaycan üçün yaşanıb, bu dahi şəxsiyyət həyatını Azərbaycanı və azərbaycançılığı dünyaya tanıtmağa sərf edibdir. Ümumilikdə, ulu öndər Heydər Əliyev 1993-cü ildə xalqın israrlı tələbi ilə hakimiyyətə gəldikdən sonra sabitlik və təhlükəsizlik təmin edildi, bütün sahələrdə böhran və tənəzzülün qarşısı alındı, ölkə tərəqqi yoluna qədəm qoydu. Bugünkü müasir müstəqil Azərbaycan məhz ulu öndər Heydər Əliyevin ideyaları əsasında inkişaf edir.

*- Ulu Öndər Heydər Əliyevin müəyyənləşdirdiyi inkişaf strategiyasının bugünkü nəticələri haqqında fikirlərinizi bilmək istərdik. Heydər Əliyev siyasətinin müasir Azərbaycan dövləti üçün əhəmiyyəti nədən ibarətdir?*

- Müstəqil Azərbaycanın qurucusu və yaradıcısı, təşkilatçısı və aparıcı qüvvəsi olan Heydər Əliyev ideyaları ölkəmizin bütün sahələrində, o cümlədən ictimai və iqtisadi-siyasi, milli-ənənəvi və mədəni-kütləvi, elmi-maarifləndirici və sosial-müdafiə sahələrində əsaslı dönüş yaranmasının başlıca istiqamətverici qüvvəsi kimi öz xoşməramlı avanqardlığını hər zaman saxlamaqdadır. XXI əsrin başlanğıcında Azərbaycanın müstəqil dövlət kimi bölgədə və dünyada layiqli yerini tapması, regional liderliyini təmin etməsi, iqtisadi sahədə keçid dövrünü uğurla başa vuraraq, yeni dinamik inkişaf mərhələsinə qədəm qoyması məhz ulu öndər, dünya şöhrətli ictimai-siyasi xadim Heydər Əliyevin xalqın rəyinə əsaslanmaqla ilk təməl daşlarını qoyduğu uzaqgörən siyasətin, dərin islahatlar strategiyasının nəticəsidir.

Dövlətçiliyin mükəmməl təməl prinsiplərini yaradan Heydər Əliyev idarəçilikdə uğurlu daxili və xarici siyasət yeridib, dünyanın güc sahibliyi ilə fərqlənən dövlətlərini Azərbaycanla hesablaşmaq, onun konsepsiyasına hörmətlə yanaşmaq faktı qarşısında qoyubdur. Yeni dünya sistemində meydan sulamaq cəhdində olan güc mərkəzləri arasında gedən çəkişmələrin pərdəarxası mahiyyətinə müvafiq şəkildə məntiqli xarici siyasət həyata keçirən müstəqil Azərbaycan Respublikası Cənubi Qafqazda lider dövlətə çevrildi, ölkəmizin regionda icra edilən bütün transmilli layihələrdə iştirakı təmin olundu. Azərbaycanın Heydər Əliyev siyasi kursuna əsaslanmaqla həyata keçirdiyi daxili siyasət də ümumən bu prinsiplərə əsaslanıb, respublikanın dövlət müstəqilliyinin və suverenliyinin möhkəmləndirilməsi, ərazi bütövlüyünün bərpası, beynəlxalq münasibətlər sistemində layiqli mövqeyinin təmin olunması, ikitərəfli əlaqələrdə bərabərhüquqlu tərəfdaş kimi çıxış etməsi milli diplomatiyanın əsas hədəflərinə çevrilibdir. Respublikamız ötən illərdə təkcə səmərəli iqtisadi təşəbbüslərlə, konkret enerji-kommunikasiya layihələri, əlverişli tranzit-kommunikasiya imkanları ilə deyil, eyni zamanda, demokratikləşmə xəttinə, Avratlantik məkana inteqrasiya kursuna sadiqliyi ilə də Qərbin diqqətini cəlb edib, Avropa məkanında etibarlı tərəfdaş imici qazanıbdır. Azərbaycanın beynəlxalq aləmə inteqrasiyası baxımından hüquqi dövlət və vətəndaş cəmiyyəti quruculuğu siyasətini də diqqət mərkəzində saxlayan Ulu Öndər bu istiqamətdə mühüm islahatların həyata keçirilməsini təmin edibdir.

*- Əhliman müəllim, 1993-cü ildə Azərbaycanı məhv olmaq təhlükəsi ilə üz-üzə qoyan qüvvələr yenə də hakimiyyət iddiasındadırlar. Buna münasibətiniz necədir?*

- Azərbaycan dövlətçiliyinə qarşı olanlar bilmədidirlər ki, daha 20-30 il əvvəl deyil. Xalqımız hər şeyi gözəl bilir, pafoslu, bəlağətli çıxışlarla onu aldatmaq zamanı geridə qalıb. Bu gün ölkə başçısı İlham Əliyev Azərbaycanda demokratiyanın inkişafı üçün böyük işlər görür. Mən bir şeyi bilirəm ki, demokratik ölkədə hakimiyyətə gəlməyin yalnız bir yolu var. Mitinqlərlə, küçə yürüşləri ilə hakimiyyətə gəlmək mümkün deyil. Ölkəmizdə obyektiv, demokratik, beynəlxalq hüquq normalarına cavab verən seçkilər keçirilir. Hakimiyyətə gəlmək istəyirsən, gəl seçkilərdə iştirak et. Prezident seçkilərindən heç bir il keçmədən müxtəlif fikirlər səsləndirməyə başlayırlar. Parlament seçkilərinə hələ bir ildən çox vaxt var, deyirlər seçkilər indi keçirilsin. Niyə? Xalqımız Heydər Əliyev siyasi kursunu və Prezident İlham Əliyev siyasətini dəstəkləyir və onlarla bir yerdədir. Dövlətimiz etibarlı əllərdədir!

## Sofiyada Dünya Xəbər Agentliklərinin VI Konqresinə hazırlıq üzrə son Şura iclası olub



İyunun 13-də Bolqarıstanın paytaxtı Sofiya şəhərində "Xəbərlərin gələcəyi" devizi altında keçiriləcək Dünya Xəbər Agentliklərinin VI Konqresinə hazırlıq üzrə son Şura iclası olub.

İclasda Azərbaycanın AZƏRTAC, Böyük Britaniyanın Press Association, Rusiyanın TASS, Səudiyyə Ərəbistanının SPA, ABŞ-ın Associated Press, Küveytin KUNA, İspaniyanın EFE və digər üzv agentliklərin rəhbərləri və nümayəndələri iştirak ediblər.

AZƏRTAC xəbər verir ki, Şura iclasında Dünya Xəbər Agentlikləri Konqresinin növbəti prezidentinin seçilməsi və VII Konqresin keçiriləcəyi ölkə barədə ətraflı müzakirələr aparıldı. Şura üzvləri Konqresin prezidentliyinə bir neçə namizəd olduğuna görə bu iclasda yekun qərara gələ bilmədilər, növbəti dəfə - cari il dekabrın 2-də Londonda yenidən görüşmək və məsələləri bir daha müzakirə etmək barədə razılığa gəldilər.

Şura iclasında, həmçinin VI Konqresin gündəliyi müzakirə olundu, müxtəlif məsələlər ətrafında fikir mübadiləsi aparıldı.

## Məktəblilər mükafatlandırılıblar



Yeni Azərbaycan Partiyası (YAP) Kürdəmir rayon təşkilatı rayonun ümumtəhsil məktəblərinin şagirdləri arasında Azərbaycanın mütəfəkkir şairi İmadəddin Nəsiminin 650 illik yubileyinə həsr olunmuş bədii qiraət müsabiqəsi keçirib.

YAP Kürdəmir rayon təşkilatının sədri Ağali Kərimli bildirib ki, ölkə Prezidenti cənab İlham Əliyevin Sərəncamı ilə görkəmli Azərbaycan şairi və mütəfəkkiri İmadəddin Nəsiminin 650 illik yubileyi ilə əlaqədar 2019-cu il "Nəsimi İli" elan edilib: "Bu Sərəncam dövlət başçısının bədii sözə və ədəbiyyatımıza, incəsənət və mədəniyyətimizə verdiyi böyük dəyər və qayğının daha bir nümunəsidir. Ölkə ictimaiyyəti "Nəsimi İli" çərçivəsində milli mənəvi dəyərlər silsiləsinin Nəsimi irsini bütün platformalarda müzakirə edir və geniş səpkidə tədbirlər reallaşır."

Müsabiqədə ümumtəhsil məktəblərinin şagirdləri iştirak ediblər. Münsiflər heyətinin iştirakı ilə iştirakçılar dinlənilib.

Münsiflər heyətinin üzvləri rayon Uşaq Yaradıcılıq İnkişaf Mərkəzinin direktoru Nəsibə Hidayətova, Kürdəmir Regional Mədəniyyət İdarəsi N.Nərimanov adına Mədəniyyət Mərkəzinin direktoru Sevinc Həsənova, şəhər 3 saylı tam orta məktəbinin müəllimi Günəş Xudiyeva, Kürdəmir Regional Mədəniyyət İdarəsinin məsləhətçisi Nazim Çıraqov, N.Gəncəvi adına Azərbaycan Ədəbiyyatı Muzeyinin Aran şöbəsinin müdiri Yaqut Əşrəfova, YAP Kürdəmir rayon təşkilatının baş məsləhətçisi Məhəmməd Heydərli, Bağman kənd tam orta məktəbinin müəllimi Xalid Bayramov iştirakçılar haqqında fikirlərini bildiriblər.

Münsiflər heyətinin qərarı ilə şəhər 3 saylı tam orta məktəbinin şagirdi Sahilə Abdullayeva birinci, 1 saylı tam orta məktəbin şagirdi Təranə Heydərova ikinci, Atakişili kənd tam orta məktəbinin şagirdi Natəvan Kərimova üçüncü yerə layiq görülüblər. Həmçinin onlar Bakıda keçiriləcək final mərhələsinə vəsiqə qazanıblar.

Qaliblər YAP Kürdəmir rayon təşkilatı tərəfindən Fəxri fərman və qiymətli hədiyyələrlə mükafatlandırılıblar.

**Orxan Vahidoğlu, *"İki sahil"***

## Ermənistan atəşkəs rejimini pozmaqda davam edir



Ermənistan silahlı qüvvələrinin bölmələri cəbhənin müxtəlif istiqamətlərində sutka ərzində atəşkəs rejimini 15 dəfə pozub.

Müdafiə Nazirliyinin mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, Ermənistanın Krasnoselsk rayonu ərazisindəki adsız yüksəkliklərdə yerləşən mövqelərdən Gədəbəy rayonu ərazisindəki adsız yüksəkliklərdə yerləşən mövqelərimiz atəşə tutulub.

Tərtər rayonunun işğal altında olan Göyarx, Çiləbürt, Ağdam rayonunun Baş Qərvənd, Xocavənd rayonunun Kuropatkino, Füzuli rayonunun Aşağı Veysəlli, Qaraxanbəyli, Aşağı Seyidəhmədli kəndləri yaxınlığında, həmçinin Tərtər rayonu ərazisindəki adsız yüksəkliklərdə yerləşən mövqelərdən də ordumuzun mövqeləri atəşə məruz qalıb.

# SOCAR-ın TENDERLƏRİ



Azərbaycan Respublikası Dövlət Neft Şirkətinin (SOCAR)

## Kompleks Qazma İşləri Tresti

**Bentonit tozuna olan tələbatını təmin etmək məqsədi ilə açıq satınalma müsabiqəsi (26046-19) elan edir.**

***I. Müsabiqədə iştirak etmək üçün təqdim edilməli sənədlər:***
* Müsabiqədə iştirak haqqında müraciət;
* İştirak haqqının ödənilməsi barədə bank sənədi;
* Müsabiqə təklifi.

Müsabiqədə iştirak haqqında müraciət (imzalanmış və möhürlənmiş) və iştirak haqqının ödənilməsi barədə bank sənədi ən geci 10.07.2019-cu il, Bakı vaxtı ilə saat 17:30-a qədər Azərbaycan və ya ingilis dilində Satınalan təşkilatın elanda göstərilmiş ünvanında təqdim olunmalıdır.

Tələb olunan sənədlərin surətləri (müsabiqə təklifi istisna olmaqla) Satınalan təşkilatın əlaqələndirici şəxsinin elanda göstərilmiş elektron ünvanına göndərilə bilər. Belə halda sənədlərin əsli müsabiqə təkliflərinin təqdim edilməsinin son gününədək Satınalan təşkilata təqdim edilməlidir.

***II. Müsabiqə təklifinin təqdim edilməsinin son tarixi və vaxtı:***
* Müsabiqə təklifi bir əsli və iki surəti olmaqla 17.07.2019-cu il, Bakı vaxtı ilə saat 10:30-a qədər Satınalan təşkilata təqdim olunmalıdır.
* Göstərilən tarixdən və vaxtdan sonra təqdim olunan təklif zərfləri açılmadan geri qaytarılacaqdır.

***III. İştirak haqqı və əsas şərtlər toplusunun əldə edilməsi:***
* Müsabiqənin əsas şərtlər toplusunu Azərbaycan və ya ingilis dilində əldə etmək istəyənlər 118 manat (ƏDV daxil) və ya ekvivalent məbləğdə sərbəst dönərli valyuta ilə iştirak haqqını qeyd olunan hesaba ödədikdən sonra elektron və ya çap formasında əlaqələndirici şəxsdən elanın I qrafasında göstərilmiş tarixədək həftənin istənilən iş günü saat 09:30-dan 17:30-a kimi ala bilərlər.

Hesab nömrəsi:
Azərbaycan Beynəlxalq Bankı ASC,
AZ38IBAZ38010019449306332120,
VÖEN: 9900003871,
Müştəri Xidməti Departamenti,
Kod: 805250,
Müxbir hesab: AZ03NABZ01350100000000002944,
VÖEN: 9900001881,
SWIFT BIK: İBAZAZ2X.

İŞTİRAK HAQQI HEÇ BİR HALDA GERİ QAYTARILMIR.

***IV. Müqavilənin icra müddəti:***
* Satınalma müqaviləsinin 60 (altmış) təqvim günü ərzində yerinə yetirilməsi tələb olunur.

***V. Satınalan təşkilatın ünvanı:***
AZ1033, Bakı şəhəri, N.Nərimanov rayonu, Ağa Nemətulla küçəsi, 105
Kompleks Qazma İşləri Tresti
**Əlaqələndirici şəxs:**
Hüseynov Anar
Kompleks Qazma İşləri Tresti, Maddi-texniki təchizat və marketinq şöbəsinin rəis müavini
Telefon: (+99 412) 521-31-59, (+99 450) 842-60-39
Faks: (+99 412) 521-31-59
Anares.Huseynov@socar.az

***VI. Elanın, satınalma predmeti haqqında geniş məlumatın və əsas şərtlər toplusunun əldə edilməsi üçün müraciət formasının yerləşdirildiyi internet ünvan:***
www.socar.az (http://www.socar.az/socar/az/company/procurement-supply-chain-management/procurement-notices)

***VII. Müsabiqə təklif zərflərinin açılışı tarixi, vaxtı və yeri:***
Zərflərin açılışı 17.07.2019-cu il tarixdə, Bakı vaxtı ilə saat 11:00-da elanın V qrafasında göstərilmiş Satınalan təşkilatın ünvanında baş tutacaqdır.

***VIII. Müsabiqənin nəticəsi haqqında məlumat:***
Müsabiqənin yekun nəticəsi haqqında məlumat aşağıdakı internet linkdən əldə edilə biləcək:
http://www.socar.az/socar/az/company/procurement-supply-chain-management/contract-awards

**Kompleks Qazma İşləri Trestinin Satınalmalar qrupu**



Azərbaycan Respublikası Dövlət Neft Şirkətinin (SOCAR)

## Karbamid zavodu

**xüsusi geyim və fərdi mühafizə vasitələrinin satın alınması məqsədi ilə açıq satınalma müsabiqəsi (32004-19) elan edir.**

***I. Müsabiqədə iştirak etmək üçün təqdim edilməli sənədlər:***
* Müsabiqədə iştirak haqqında müraciət;
* İştirak haqqının ödənilməsi barədə bank sənədi;
* Müsabiqə təklifi (müsabiqə təklifləri zərflərinin açıldığı tarixdən sonra ən azı 60 təqvim günü qüvvədə olmalıdır).

Müsabiqədə iştirak haqqında müraciət (imzalanmış və möhürlənmiş) və iştirak haqqının ödənilməsi barədə bank sənədi ən geci 08.07.2019-cu il, Bakı vaxtı ilə saat 17:30-a qədər Azərbaycan, rus və ya ingilis dilində Satınalan təşkilatın elanda göstərilmiş ünvanında təqdim olunmalıdır.

Tələb olunan sənədlərin surətləri (müsabiqə təklifi istisna olmaqla) Satınalan təşkilatın əlaqələndirici şəxsinin elanda göstərilmiş elektron ünvanına göndərilə bilər. Belə halda sənədlərin əsli müsabiqə təkliflərinin təqdim edilməsinin son gününədək Satınalan təşkilata təqdim edilməlidir.

***II. Müsabiqə təklifinin təqdim edilməsinin son tarixi və vaxtı:***
* Müsabiqə təklifi hər 4 LOT üzrə bir əsli və 2 surəti olmaqla 15.07.2019-cu il, Bakı vaxtı ilə saat 14:30-ə qədər Satınalan təşkilata təqdim olunmalıdır.
* Göstərilən tarixdən və vaxtdan sonra təqdim olunan təklif zərfləri açılmadan geri qaytarılacaqdır.

***III. İştirak haqqı və əsas şərtlər toplusunun əldə edilməsi:***
* Müsabiqənin əsas şərtlər toplusunu Azərbaycan, rus və ya ingilis dilində əldə etmək istəyənlər aşağıda tərtib edilmiş cədvəldə qeyd edilmiş məbləği AZN-lə və ya ekvivalent məbləğdə sərbəst dönərli valyuta ilə iştirak haqqını qeyd olunan hesaba ödədikdən sonra elektron və ya çap formasında əlaqələndirici şəxsdən elanın I qrafasında göstərilmiş tarixədək həftənin istənilən iş günü saat 09:30-dan 17:30-a kimi ala bilərlər.

Hesab nömrəsi:
Azərbaycan Beynəlxalq Bankı ASC,
AZ38IBAZ38010019449306332120,
VÖEN: 9900003871,
Müştəri Xidməti Departamenti,
Kod: 805250,
Müxbir hesab: AZ03NABZ01350100000000002944,
VÖEN: 9900001881,
SWIFT BIK: İBAZAZ2X
Intermediary Bank: Deutsche Bank Trust Company Americas,New York
S.W.I.F.T: BKTRUS33
ACC # USD 04-164-504
Beneficiary Bank: The International Bank of Azerbaijan Republic Customer Service Department
SWIFT: İBAZAZ2X
Beneficiary: State Oil Company of Azerbaijan Republic
TAX İD: 9900003871
Account \ IBAN AZ28IBAZ38110018409306332120 USD
Intermediary Bank:Commerzbank AG, Frankfurt am Main
S.W.I.F.T: COBADEFF
ACC # 400 88 660 3001
Beneficiary Bank: The International Bank of Azerbaijan Republic " Customer Service Department
SWIFT: İBAZAZ2X
Beneficiary: State Oil Company of Azerbaijan Republic
TAX İD: 9900003871
Account No:AZ08IBAZ38110019789306332120 EUR
Beneficiary Bank: The International Bank of Azerbaijan Republic Customer Service Department
SWIFT: İBAZAZ2X
Nizami str., 67
Phone: (+99450) 493-68-23
Beneficiary: State Oil Company of Azerbaijan Republic
TAX İD: 9900003871
Account No: AZ23IBAZ38110018269306332120

İŞTİRAK HAQQI HEÇ BİR HALDA GERİ QAYTARILMIR.

***IV. Müqavilənin icra müddəti:***
Satınalma müqaviləsinin 4 LOT üzrə yerinə yetirilməsi üçün 60 təqvim günü icra müddəti tələb olunur. (İran istehsalı qəbul olunmur)

***V. Bank təminatları:***
*1. İddiaçıdan yalnız LOT2 üzrə müsabiqə təklifinin ümumi qiymətinin 5%-i miqdarında təminat tələb olunur.*
*2. Bank qarantiyalarının əsli müsabiqə zərfində müsabiqə təklifi ilə birlikdə təqdim edilməlidir. Əks təqdirdə satınalan təşkilat belə təklifi rədd etmək hüququnu özündə saxlayır.*
*3. Qarantiyanı vermiş maliyyə təşkilatı Azərbaycan Respublikasında və/və ya beynəlxalq maliyyə əməliyyatlarında qəbul edilən olmalıdır. Satınalan təşkilat etibarlı hesab edilməyən bank qarantiyaları qəbul etməmək hüququnu özündə saxlayır.*
*4.Əgər satınalma müsabiqəsində iştirak etmək istəyən şəxslər digər növ təminat (akkreditiv, qiymətli kağızlar, satınalan təşkilatın müsabiqəyə dəvət sənədlərində göstərilmiş xüsusi hesabına pul vəsaitinin köçürülməsi, depozitlər və digər maliyyə aktivləri) təqdim etmək istədikdə təminat növünün mümkünlüyü barədə elanda göstərilmiş əlaqələndirici şəxsə əvvəlcədən sorğu verməlidir və razılıq əldə etməlidir.*

**Avans ödənişinə görə təminat:**
Avans ödənişin təminatının məbləği ən azı ödəniləcək avans məbləğinə bərabər olacaqdır.
Hazırki satınalma əməliyyatı üzrə Satınalan təşkilat tərəfindən 4 LOT üzrə ən çoxu 20%-ə qədər avans ödənişinin yerinə yetirilməsi nəzərdə tutulur.
Müqavilənin yerinə yetirilməsi təminatı: (LOT2 üzrə)
Müqavilənin yerinə yetirilməsi təminatı satınalma müqaviləsinin ümumi qiymətinin 5 (beş) %-i məbləğində tələb olunur.

***VI. Satınalan təşkilatın ünvanı:***
AZ5000, Karbamid zavodu, Sumqayıt şəhəri, Səməd Vurğun 86
**Əlaqələndirici şəxs:** Bahadur Abdıyev, Komplektləşdirmə və Təchizat şöbəsinin böyük mühəndisi
Telefon nömrəsi: +994 12 521-00-00 32-090
Korporativ mobil:+994 50 843-20-90
Elektron ünvan: bahadur.o.abdiyev@socar.az

***VII. Elanın, satınalma predmeti haqqında geniş məlumatın və əsas şərtlər toplusunun əldə edilməsi üçün müraciət formasının yerləşdirildiyi internet ünvan:***
www.socar.az (http://www.socar.az/socar/az/company/procurement-supply-chain-management/procurement-notices)

***VIII. Müsabiqə təklif zərflərinin açılışı tarixi, vaxtı və yeri:***
Zərflərin açılışı 15.07.2019-cu il tarixdə Bakı vaxtı ilə, LOT1 üzrə saat 15:00-da, LOT2 üzrə 15:30-da, LOT3 üzrə 16:00-da, LOT4 üzrə 16:30-da elanın V qrafasında göstərilmiş Satınalan təşkilatın ünvanında baş tutacaqdır.

***IX. Müsabiqənin nəticəsi haqqında məlumat:***
Müsabiqənin yekun nəticəsi haqqında məlumat aşağıdakı internet linkdən əldə edilə biləcək:
http://www.socar.az/socar/az/company/procurement-supply-chain-management/contract-awards

**Karbamid zavodunun Satınalmalar qrupu**

# “SOCAR Karbamid” zavodunun istehsal və ixrac potensialı yüksəlir





**Dünən “SOCAR Karbamid” zavoduna təşkil olunmuş mediaturun gedişi zamanı jurnalistlər müəssisənin istehsal etdiyi məhsulların ixrac prosesi ilə tanış oldular. Öncə anbarlardakı hazır məhsulların iritonnajlı avtomobillərə yüklənmə prosesi izləndi. Məlumat verildi ki, bu anbarın həcmi bir neçə hektara yaxındır və məhsul tutumu 60 min tondur.**

Avtomobillər hazır məhsulları Hovsan qəsəbəsində yerləşən limanlardakı gəmilərə yüklənmək üçün yola çıxdı. Eyni zamanda, digər anbarda isə karbamidin açıq şəkildə deyil, kisələrə doldurularaq ixracı reallaşırdı. Bu anbarda müasir avadanlıqlar quraşdırılıb və hazır məhsul konveyer üsulu ilə kisələrə doldurularaq ixrac üçün iritonnajlı maşınlara yüklənirdi.

Qeyd edək ki, zavodun ixrac arenası gündən-günə böyüyür. Bu barədə zavodun direktoru Xəyal Cəfərov bu barədə jurnalistlərə məlumat verərək bildirdi ki, müəssisə cari ilin yanvar ayından istehsala başlayıb və zavodun açılış mərasimində cənab Prezident İlham Əliyev iştirak edib: “Bu günə kimi Karbamid zavodunda 60 min ton azot gübrəsi - karbamid istehsal olunub. Artıq istehsal olunmuş karbamidin satışına başlanıb. Zavodun istehsal gücü sutkada 2 min tondur və bu, illik təqribən 650-660 min ton edir. Biz nəzərdə tutmuşuq ki, istehsal olunan karbamidin təxminən 30 faizi daxili bazarda satılacaq və 70 faizi xarici bazarlara ixrac olunacaqdır. Karbamidin ilk hissəsinin satışı may ayının sonunda baş tutub və cari ayın 5-də artıq iki gəmi ilk Azərbaycan karbamidi ilə Qara dəniz istiqamətində yola düşüb. Karbamidin satışı ilə SOCAR-ın Marketinq və İqtisadi Əməliyyatlar İdarəsi məşğul olur”.

Xəyal Cəfərov bildirdi ki, ilk karbamid məhsulunun alıcısı İsveçrənin nüfuzlu gübrə treydinq və logistika şirkəti - “İntegral Petroleum” MMC olub: “Bundan başqa, həm Türkiyə, həm də Ukrayna şirkətləri də artıq bizdən karbamid alıblar. Karbamidin ixracı əsasən 3 cür nəzərdə tutulub. Biri dənəvər formasında böyük tonnajlı avtomobillərə yüklənilir və Hövsan limanından isə Volqa-Don kanalı vasitəsilə Qara dənizə yola salınır. Bizim məhsullarımıza Türkiyədə və Ukraynada tələbat daha çoxdur. İndiyə qədər ilkin partiya olaraq 30 min ton karbamid tenderə çıxarılıb. Bu günün sonuna artıq 5-ci gəminin yüklənməsi tamamlanacaq. Bu isə 15 min ton karbamidin satılması deməkdir.



Bundan başqa, biz təxminən min ton karbamidin 40 kiloluq kisələrdə Ukraynaya satışını həyata keçirmişik. Daxili bazarda da yenə də 40 kiloluq kisələrlə təxminən 1200 ton karbamidin satışını reallaşdırmışıq”.

X.Cəfərov söylədi ki, ilk Azərbaycan karbamidinin daxili bazarda alıcısı “Azfert” MMC şirkəti olub: “Ancaq gözlənilir ki, ən böyük alıcı “Aqrolizinq” Açıq Səhmdar Cəmiyyəti olacaq. Bildiyiniz kimi, “Aqrolizinq” vasitəsilə gübrə fermerlərə güzəştlə və subsidiyalarla çatdırılır. Müəyyən prosedurlar tamamlanandan sonra gözlənilir ki, bu ayın sonu - gələn ayın əvvəlində biz artıq “Aqrolizinq” şirkətinə də gübrənin satışını həyata keçirəcəyik. Karbamid zavodu tərəfindən bütün zəruri sənədləşmə prosesi tamamlanıb. Karbamidin istehsalı üçün biz müvafiq lisenziyanı da almışıq. Karbamidin qeydiyyatını həyata keçirmişik və məhsulumuzun uyğunluq sertifikatını da biz rəsmi olaraq almışıq.

Bundan başqa, zavodda bütün sınaq-sazlama işləri tamamlanıb. Hazırda “Samsung Engineering Co., Ltd.” şirkətindən SOCAR-a təhvil verilmə prosesi baş tutur. Bu prosesin təxminən ayın 20-dək tamamlanması nəzərdə tutulur. Ayın 20-də zavod SOCAR-ın mühəndislərinin və fəhlə heyətinin idarəetməsi vasitəsilə işə düşəcək. Yəni zavodda bütün idarəetmə həmin tarixdən başlayaraq SOCAR-ın işçiləri tərəfindən həyata keçiriləcək. Zavodda ümumiyyətlə, 500 nəfər işçinin çalışacağı nəzərdə tutulub. Hazırda işçilərin sayı 400 nəfəri keçib. Lakin bu, son deyil və işçilərin qəbulu bu gün də davam etdirilir. Növbəti bir ayda təxminən 80 nəfərin də işə qəbulu nəzərdə tutulub”.

Mediatur jurnalistlərin zavod haqqında zəngin təəssüratları və məlumatları ilə başa çatdı. Bir daha əmin olduq ki, bu zavod regionun ən strateji və gəlirli istehsalat müəssisələrindən biri olacaqdır.

**Elçin Zaman,**

**Cavid Əkbərov,**

***“İki sahil”***

# Heydər Əliyev Fondu tərəfindən

## Qarabağ müharibəsi əlili üçün yeni ev tikilib



**Azərbaycan Respublikasının birinci vitse-prezidenti, Heydər Əliyev Fondunun prezidenti Mehriban Əliyevanın tapşırığı ilə Ucar rayonunun ən iri yaşayış məntəqəsi olan Qaracallıda kənd sakini, ikinci qrup Qarabağ müharibəsi əlili Şöhrət Qasımov üçün fərdi evin tikintisi başa çatıb.**

1978-ci ildə anadan olan Şöhrət Qasımov ailənin ən böyük övladıdır. Üç qardaş, bir bacıdırlar. Hərbi xidmətdə olarkən 1998-ci il iyulun 18-də Füzuli rayonunun Əbdürrəhmanlı kəndində ermənilərin qəfil hücumuna məruz qalıblar. Gərgin keçən atışmada bir ayağının dizdən aşağı hissəsini itirib.



Yeni evin sevincini yaşayan Şöhrət Qasımov Birinci vitse-prezident Mehriban Əliyevaya minnətdarlığını bildirərək deyib: “Mənzil şəraitimiz çox pis idi. Mehriban xanıma müraciət ünvanladım. Çox sağ olsun, müraciətimə dərhal cavab verildi və qısa vaxtda gözəl ev tikildi. İndi burada həyat yoldaşım və 2 övladımla - Azərbaycanın gələcək əsgərləri ilə rahat yaşayırıq. Bu rahatlığı bizə bəxş edən Heydər Əliyev Fonduna, fondun prezidenti Mehriban Əliyevaya çox-çox minnətdaram”.

Ölkəmizdə əlillərə xüsusi diqqət və qayğı göstərildiyini deyən Qarabağ müharibəsinin əlili Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə torpaqlarımızın erməni qəsbkarlardan azad ediləcəyi günü səbirsizliklə gözləyir.

Qeyd edək ki, həyat yoldaşı və 2 övladı ilə ağır mənzil şəraitində yaşayan Şöhrət Qasımov bir müddət öncə Heydər Əliyev Fondunun “Regional inkişaf” İctimai Birliyinə müraciət ünvanlayıb. Müraciətdən sonra bu ilin fevralında əraziyə baxış keçirilib və yeni evin layihəsi hazırlanıb. Fondun prezidenti Mehriban Əliyevanın tapşırığı ilə tezliklə tikinti işlərinə başlanıb və Qarabağ əlilinə məxsus həyətyanı sahədə 4 aya üç otaqlı, tam təmirli, mətbəx mebeli ilə təchiz olunan, su çəni və suqızdırıcı avadanlıq qoyulan fərdi ev inşa edilərək, ailəyə təhvil verilib.

# Astarada möhtəşəm tədbir

Respublikamızın hər yerində sadə xalq 15 İyun - Milli Qurtuluş Gününü böyük təntənə, sevgi dolu ürəklə qarşılayır. Məhz dünya şöhrətli siyasətçi, tarixin yetirdiyi görkəmli şəxsiyyət, Vətənini, xalqını canından artıq sevdiyi Heydər Əliyevin müdrik fəaliyyəti, parlaq zəkası hesabına 1993-cü ilin 15 iyununda Azərbaycan təhlükələrdən xilas olaraq özünün müstəqillik tarixinin daha şərəfli, əzəmətli mərhələsinə qədəm qoymuşdur. Ulu Öndər müstəqil Azərbaycanı qurmaqla, həm də onu işıqlı gələcəyə aparan yolları çox uzaqgörənliklə müəyyən etmişdir. Bu gün bizim xoşbəxt həyatımız Milli Qurtuluş Gününün, daha dəqiq desək, Heydər Əliyevin siyasi hakimiyyətə tarixi qayıdışının bəhrəsidir. Nə yaxşı ki, əbədiyaşar liderin qurub-yaratdığı ölkə onun layiqli davamlı Prezident İlham Əliyevin rəhbərliyi ilə bütün dünyaya hərtərəfli yüksəliş inkişaf dinamikasını göstərə bilir.

Bütün bu deyilənləri dərindən başa düşən, ilahi bir sevgi ilə Ulu Öndərə qəlblərində əbədi yer edən Astara camaatı Milli Qurtuluş Gününü Azərbaycan tarixinin şanlı səhifəsi kimi qeyd edir. Burada keçirilən möhtəşəm tədbir bir daha bunun əyani nümayişi oldu. Rayon icra hakimiyyətin tədbirlər planına uyğun olaraq Gənclər və idman idarəsinin, Təhsil şöbəsinin əlamətdar günlə əlaqədar birgə təşkil etdikləri mərasimə gələnlərin sayı bilinmirdi.

Tədbir ulu öndər Heydər Əliyevin abidəsi önünə tər gül-çiçək dəstələri qoyulmaqla başlandı. Park-bulvar kompleksindəki Dövlət Bayrağı Meydanına qədər birgə yürüş tədbir iştirakçılarının yaddaşında möhkəm birliyin rəmzinə döndü.



Tədbirin rəsmi hissəsinə Astara Olimpiya İdman Kompleksinə toplaşan rayon sakinləri Azərbaycan tarixinin şərəfli səhifəsini ürəklə vərəqləyib Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyevin xalqa, dövlətə xeyirli, gərəkli əməllərdən danışdılar. Hamının ümumi fikri belə oldu ki, bu gün müstəqil Azərbaycanın mövcudluğu, dünyada qüdrətli bir ölkəyə çevrilməsi ulu öndər Heydər Əliyevin adı ilə bağlıdır. Buna görə də Heydər Əliyev deyəndə Azərbaycan xalqı, Azərbaycan xalqı deyəndə Heydər Əliyev xatırlanır.

Rəsmi hissədən sonra “Şahin” hərbi-idman oyununun nümunəvi çıxışı, “Şən startlar” yarışması maraqlı alındı. Əsərlərində Milli Qurtuluş Gününü özündə əks etdirən rəsm, Vətənimizə, Ulu Öndərə həsr olunmuş şeir müsabiqələrinin qaliblər müəyyən edildi. Məktəblilərin, Astara Pedaqoji Kollecin tələbələrinin Azərbaycan Bayrağının meydana gətirilməsi, “Qurban olum, Azərbaycan” mahnısının səslənməsi tədbir iştirakçılarında gözəl bir ovqat yaratdı.

**Zəfər Orucoğlu,**

*Azərbaycan Jurnalistlər Birliyinin üzvü*

## DTX dövlətə xəyanətdə şübhəli bilinən baş redaktoru saxlayıb



Dövlət Təhlükəsizliyi Xidmətində (DTX) aparılan istintaq-əməliyyat tədbirləri nəticəsində 1989-cu il təvəllüdlü, Azərbaycan Respublikasının vətəndaşı, “xeberman.com” və “press-az.com” informasiya saytlarının təsisçisi və baş redaktoru Aslanov Polad İsrayıl oğlu dövlətə xəyanət cinayət əməllərinə görə şübhəli şəxs qismində saxlanılıb.

DTX-nin ictimai əlaqələr şöbəsindən AZƏRTAC-a verilən məlumata görə müəyyən edilib ki, Polad Aslanov xarici xüsusi xidmət orqanlarının əməkdaşları ilə respublikadan kənarda məxfi görüşlər keçirib, aldığı pul vəsaitinə dair qəbzləri imzalayıb müntəzəm pul vəsaitləri ödənilməsi şərti ilə maddi maraq müqabilində məxfi əməkdaşlığa cəlb edilib. O, xarici xüsusi xidmət orqanlarının əməkdaşlarından aldığı tapşırıqlar əsasında Azərbaycan Respublikasının dövlət təhlükəsizliyi və müdafiə qabiliyyəti zərərinə olaraq istifadə etmək üçün topladığı məlumatları həmin orqanlara ötürüb, onların tapşırığı ilə mətbuatda, sosial şəbəkələrdə dövlət əleyhinə, hüquq-mühafizə orqanlarının qanuni fəaliyyətini nüfuzdan salmağa yönəlmiş yazılar yayımlaması razılaşdırılıb.

Polad Aslanov adları istintaq sirri kimi hazırda açıqlanmayan jurnalistləri gələcək əməkdaşlıq imkanları üzrə xarici ölkə ərazisində həmin xüsusi xidmət orqanı əməkdaşları ilə tanış edib.

İstintaq zamanı Polad Aslanovun Azərbaycan Respublikasının dövlət təhlükəsizliyi maraqlarına zidd olaraq xarici xüsusi xidmət orqanı nümayəndələri ilə əməkdaşlığına dair çoxsaylı materiallar əldə edilib, Polad Aslanov törətdiyi cinayət əməlləri barədə ətraflı məlumatlar verib.

Polad Aslanov Azərbaycan Respublikası Cinayət Məcəlləsinin 274-cü (dövlətə xəyanət) maddəsi ilə məsuliyyətə cəlb olunub.

Hazırda istintaq-əməliyyat tədbirləri davam etdirilir.

# Erməni uğursuzluğuna susan orduxanlar...



Fransanın Serji-Pontuaz məhkəməsinin Arnuvill şəhərinin qondarma Dağlıq Qarabağdakı qondarma qurumu təmsil edən Şəhər inzibati bölgəsi ilə “Dostluq haqqında xartiya”sını ləğv etməsinin ardınca Qrenobl inzibati məhkəməsi tərəfindən də bənzər qərarın çıxarılması separatçı rejimin beynəlxalq miqyasda tanıdılması cəhdlərinin iflasa uğradığını göstərir. Bu isə o deməkdir ki, Fransa ermənilərin ümidləri-ni puç, gözləntilərini isə altüst etməkdə davam edir. Fransa məhkəmələrinin bu addımlarını, eyni zamanda, beynəlxalq ictimaiyyətin separatçılıq meyillərini qınamasının növbəti təzahürü kimi də dəyərləndirmək olar. Qeyd edək ki, xartiyalar Fransanın xarici siyasət kursuna və beynəlxalq öhdəliklərinə zidd idi, həm də ATƏT-in Minsk qrupunun həmsədrlərindən biri kimi bu ölkənin bitərəfliyini şübhə altına salırdı. Digər tərəfdən, onların 26 ildən bəri işğal altında olan Azərbaycan ərazilərindəki qondarma rejimin təmsilçiləri ilə belə sənədlər imzalamaq hüquqları yox idi. Ona görə də məhkəmələrin qərarları ilə həm Arnuvill, həm də Qrenobl merinə qarşı Fransa hökuməti tərəfindən ölkənin regionları ilə əməkdaşlığa dair qanunun pozulması maddəsi ilə ittiham də irəli sürülüb. Bununla da Fransada Ermənistanın Azərbaycan Respublikasının Dağlıq Qarabağ bölgəsindəki separatçı rejimi legitimləşdirmək cəhdlərinin qarşısı alınıb.

Yeri gəlmişkən qeyd edək ki, Dağlıq Qarabağdakı separatçı rejimin “həyata keçirdiyi” bütün təşəbbüslər, seçkilər, referendumlar da qondarmadır. Yəni onların da heç bir hüquqi, sosial, mənəvi dəyəri yoxdur.

Siyasətçilərin fikrincə, Fransanın bəzi bələdiyyə orqanlarının başçılarının işğal olunmuş Azərbaycan ərazilərinə səfərləri əvvəlcədən məqsədyönlü şəkildə planlaşdırılaraq həyata keçirilmişdi. Bu mənada Fransa bələdiyyə başçılarının səfərləri həm də işğal və azərbaycanlıların etnik təmizlənməsi əsasında qurulan status-kvonun təşviqini həyata keçirmək baxımından birbaşa təxribat idi. Başqa sözlə desək, ermənilər belə “sənədlər”in imzalanması ilə Azərbaycanın işğal olunmuş ərazilərində yaradılmış separatçı rejimin tanınmasına nail olmağa çalışırdılar.

Qeyd edək ki, Fransa məhkəmələrinin qərarları Azərbaycanın işğal olunmuş əraziləri ilə əlaqədar digər qanunsuz addımların da qarşısının alınmasına bir vəsilə olacaq. Şübhəsiz, bütün bunlar ölkə Prezidenti İlham Əliyevin həyata keçirdiyi uğurlu siyasətin, eləcə də beynəlxalq tribunalardan dəfələrlə Dağlıq Qarabağın Azərbaycanın ayrılmaz hissəsi olduğunu bəyan etməsinin nəticəsidir. Bu məsələdə Birinci vitse-prezident Mehriban xanım Əliyevanın istər mədəni, istərsə də siyasi xarakterli görüşlərinin də kifayət qədər rolu olub.

Görülmüş bu kimi işlər öz Vətənini sevən hər bir soydaşımızı sevindirir.

Amma bu kimi məsələlər xaricdə yaşayan və ölkəmiz əleyhinə təbliğat aparan orduxanların maraq dairəsinə daxil deyil. Yəni xaricdə bizə qarşı fəaliyyət göstərən “mühacirət müxalifəti” bir dəfə də olsun Dağlıq Qarabağdan danışmır. Çünki onlar, sadəcə, anti-Azərbaycan dairələrdən aldıqları təlimatlarla hərəkət edirlər. Odur ki, onlar adətlərinə uyğun olaraq Fransa məhkəmələrinin çıxardığı bu qərarlardan da bir kəlmə belə söz açmadılar. Daha doğrusu, yenə də ümummilli məsələdə susdular. Sosial şəbəkələrdə, eləcə də bəzi dairələrdə “milli mənafelərdən” danışan şəxslərin belə məsələlərdə susqunluq nümayiş etdirmələri onlarda heç bir milli təssübkeşliyin olmadığını bir daha göstərdi. Xarici havadarlarından aldıqları sifarişlər əsasında qoynunda böyüyübbaşa çatdıqları doğma Vətənlərində sabitliyi pozmağa və bu yolla qarşıdurma yaratmağa cəhd göstərənlərin bu susqunluqları bir daha sübut etdi ki, onlara qrantları məhz respublikamızı gözdən salmaq üçün ayırırlar. Artıq hər kəsə bəllidir ki, müxtəlif yollarla xarici ölkələrə üz tutub çirkin kampaniyalara cəlb olunan antimilli ünsürlərin əməlləri öz dövlətinə və xalqına qarşı xəyanətdən başqa bir şey deyil.

**Qvami Məhəbbətoğlu,**
***“İki sahil”***

# Sevinc Osmanqızının növbəti fitnəkarlığı

Zaman-zaman fəallaşaraq respublikamıza qarşı “qara piar” kampaniyası aparan anti-Azərbaycan dairələr və onların ölkəmizdəki “5-ci kolon”u respublikamız haqqında mənfi ictimai rəy formalaşdırmağa cəhd göstərərək heç bir əsası olmayan qərəzli xəbərlər, dezinformasiya yaymağa çalışırlar.




Bu məkrli qüvvələr əsas fəaliyyətlərini sosial şəbəkələr üzərində qururlar. Hazırda ictimai-siyasi proseslərin mühüm tərkib hissəsinə çevrilmiş sosial şəbəkələr, sosial media vasitələri ictimai əhəmiyyətli problemlərin müzakirəsi baxımından mühüm əhəmiyyət daşıyır. Bu baxımdan siyasi proseslərin subyektlərinin sosial şəbəkələrdə fikirləri və hərəkətləri də diqqəti cəlb edir.

Son vaxtlarda xaricdə erməni diasporunun, eləcə də antimilli dairələrin birbaşa təbliğat ruporuna çevrilən radikal qruplar öz internet resurslarından istifadə edərək vətəndaşları itaətsizliyə çağırır, çirkin siyasi maraqlarına uygun spekulyasiyalar edirlər. Bu baxımdan ABŞ-da fəaliyyətini birbaşa ermənilərlə sinxronlaşdıran Sevinc Osmanqızı daha da fəallaşıb. Onun bu günlərdə Realliq.info saytının baş redaktoru İkram Rəhimovun konkret cinayət əməlinə görə həbsinə siyasi rəng verməsi və bu istiqamətdə spekulyasiyaları diqqətdən yayınmır. Əvvəla, baxaq görək kimdir bu İkram Rəhimov? Bu şəxs tabeçiliyində olan şəxslərlə birlikdə “Realliq.info” və digər “reket” informasiya saytları yaradıb, həmin internet qəzetlərin jurnalistləri adı altında ayrı-ayrı vətəndaşların barəsində rüsvayedici və böhtan xarakterli məlumatları mətbu orqanlarında müntəzəm yayaraq dayandırılması müqabilində pul tələb edib. Bu üsulla müxtəlif idarə və təşkilatlarda çalışan şəxslərdən, sahibkarlardan dövri haqq toplaması barədə dəfələrlə mətbuatda informasiyalar gedib. Onun konkret cinayət əməli törətməsi təsdiq edilib və Bakı Ağır Cinayətlər Məhkəməsində ona hökm oxunub.

Sevinc Osmanqızının hazırda cinayətkar şəxsin müdafiəsinə qalxması da konkret olaraq bu şəbəkənin bir mərkəzdən idarə olunduğunu təsdiq edir. Həmin anti-Azərbaycan şəbəkənin məqsədi isə cinayət faktından diqqəti yayındırmaq və ənənəvi “siyasi məhbus” məsələsini gündəmə gətirməklə bundan dividend götürməyə çalışmaqdır. Şəbəkənin bu məkrli ssenarilərini Sevinc Osmanqızı vasitəsilə dövriyyəyə buraxmaları da təsadüf sayılamamalıdır. “Siyasi məhbus” məsələsini özləri üçün biznes sahəsinə çevirən, varlanmaq, qrant almaq ehtirası ilə yanan, eyni zamanda, dünya ictimaiyyətinin diqqətini cəlb etmək istəyən, özlərindən “demokratik” obraz yaratmağa cəhd edən bu mənafe qruplarının növbəti addımları onların qaragüruh xislətini bir daha göstərdi. Görünən budur ki, xarici təxribatçı, ermənipərəst dairələrin dəstəyi ilə bu mövzunu ortaya atmaqla destruktiv, antimilli fəaliyyətlərini artırmaq üçün bolluca qrant alıblar. Sorosun mənəvi qızı sayılan Sevinc Osmanqızının hazırda irəli verilməsi bu siyasi oyunun mahiyyətini çılpaqlığı ilə ortaya qoydu.

Anti-Azərbaycan “Siyasi məhbus” və Avropadan sığınacaq almaq istəyən “siyasi fəallar” üzərindən alver etməsi bugünün məsələsi deyil. Avropadan sığınacaq almaq istəyənlərə saxta partiya bileti və ya üzvlük haqqında arayış verən AXCP sədri Əli Kərimli, eyni zamanda, onlar üçün digər saxta dəlillərin (guya polis zorakılığını əks etdirən şəkillər, yalançı məhbusluq həyatı və s.) hazırlanması işində də fəal iştirak edib. Bu gün də həmin izlər aydın görünür.

Beləliklə, Azərbaycan dövlətinin əleyhinə həyata keçirilən bütün çirkinliklərin içindən Əli Kərimli və onun Avropada, ABŞ-dakı qrantdaşları dayanır. Sevinc Osmanqızı, Əli Kərimli, Orduxan Teymurxan və digər radikal qrupları bir amal birləşdirir: öz şəxsi maraqları naminə Azərbaycanı qurban verməkdir...

✍ **Zahid Rza,**
***“İki sahil”***

## TURİSTLƏRİN SAYI 3,8 FAİZ ARTIB



Yanvar-may aylarında Azərbaycana gələn turistlərin sayında ötən ilin müvafiq dövrünə nisbətən 3,8 faiz artım müşahidə olunub.

Bu barədə iyunun 13-də Bakıda keçirilən V Azərbaycan-Avropa İttifaqı biznes forumu çərçivəsində “Turizm” adlı panel iclasda Azərbaycan Turizm Bürosunun baş icraçı direktoru Florian Zenqstşmid deyib.

O bildirib ki, ötən il ölkəyə 2,8 milyon turist gəlib. Çin, Koreya Respublikası və Yaponiyadan gələn turistlərin sayında 8-9 faiz artım olub. Həmçinin, Yaxın Şərq ölkələrindən, Qətər, Bəhreyn, Birləşmiş Ərəb Əmirliklərindən gələn turistlərin sayı da artıb.

## AVROPA İTTİFAQI 33 MİLYARD DOLLAR İNVESTİSİYA YATIRIB

İndiyədək Avropa İttifaqı (Aİ) tərəfindən Azərbaycan iqtisadiyyatına 33 milyard ABŞ dolları, Azərbaycan Aİ-yə 15 milyard dollar sərmayə yatırıb.

Bu barədə İqtisadiyyat naziri Şahin Mustafayev iyunun 13-də Bakıda keçirilən Avropa İttifaqı-Azərbaycan biznes forumunda deyib.

Nazir qeyd edib ki, hazırda ölkədə Avropa İttifaqına üzv ölkələrin 1600 şirkəti fəaliyyət göstərir. Ötən il Azərbaycanla Avropa İttifaqı ölkələri arasında ticarət dövriyyəsinin həcmi 30 faiz artıb. Azərbaycan Aİ-nin əsas iqtisadi və ticarət tərəfdaşlarındandır.

# SOCAR-ın TENDERLƏRİ



Azərbaycan Respublikası Dövlət Neft Şirkətinin (SOCAR)

## Heydər Əliyev adına Neft Emalı zavodu

**İsti tablandırılmış polad vərəqlər və bürünc pəstahlara olan tələbatını təmin etmək məqsədi ilə açıq satınalma müsabiqəsi (17030-19/A) elan edir.**

***I. Müsabiqədə iştirak etmək üçün təqdim edilməli sənədlər:***
* Müsabiqədə iştirak haqqında müraciət;
* İştirak haqqının ödənilməsi barədə bank sənədi;
* Müsabiqə təklifi.

Müsabiqədə iştirak haqqında müraciət (imzalanmış və möhürlənmiş) və iştirak haqqının ödənilməsi barədə bank sənədi ən geci 02 iyul 2019-cu il, Bakı vaxtı ilə saat 16:30-a qədər Azərbaycan, rus və ya ingilis dilində Satınalan təşkilatın elanda göstərilmiş ünvanında təqdim olunmalıdır.

Tələb olunan sənədlərin surətləri (müsabiqə təklifi istisna olmaqla) Satınalan təşkilatın əlaqələndirici şəxsinin elanda göstərilmiş elektron ünvanına göndərilə bilər. Belə halda sənədlərin əsli müsabiqə təkliflərinin təqdim edilməsinin son gününədək Satınalan təşkilata təqdim edilməlidir.

***II. Müsabiqə təklifinin təqdim edilməsinin son tarixi və vaxtı:***
* Müsabiqə təklifi bir əsli və 2 (tələb olunan surətlərin sayı) surəti olmaqla 15 iyul 2019-cu il, Bakı vaxtı ilə saat 12:00-a qədər Satınalan təşkilata təqdim olunmalıdır.
* Göstərilən tarixdən və vaxtdan sonra təqdim olunan təklif zərfləri açılmadan geri qaytarılacaqdır.

***III. İştirak haqqı və əsas şərtlər toplusunun əldə edilməsi:***
* Müsabiqənin əsas şərtlər toplusunu Azərbaycan, rus və ya ingilis dilində əldə etmək istəyənlər

Lot №1 üzrə 59 manat (ƏDV daxil),
Lot №2 üzrə 118 manat (ƏDV daxil),
Lot №3 üzrə 118 manat (ƏDV daxil) və ya ekvivalent məbləğdə sərbəst dönərli valyuta ilə iştirak haqqını qeyd olunan hesaba ödədikdən sonra elektron və ya çap formasında əlaqələndirici şəxsdən elanın I qrafasında göstərilmiş tarixədək həftənin istənilən iş günü saat 09:30-dan 17:30-a kimi ala bilərlər.

Hesab nömrəsi:
Azərbaycan Beynəlxalq Bankı ASC,
AZ38IBAZ38010019449306332120,
VÖEN: 9900003871,
Müştəri xidməti Departamenti,
Kod: 805250,
Müxbir hesab: AZ03NABZ01350100000000002944 (AZN)
VÖEN: 9900001881,
SWIFT BIK: İBAZAZ2X.
Intermediary Bank:Deutsche Bank Trust Company Americas,New York
S.W.I.F.T: BKTRUS33
ACC # USD 04-164-504
Beneficiary Bank: The International Bank of Azerbaijan Republic Customer Service Department
SWIFT: İBAZAZ2X
Nizami str., 67
Phone: (+99450) 493-68-23
Beneficiary: State Oil Company of Azerbaijan Republic
TAX İD: 9900003871
Account\IBAN: AZ28IBAZ38110018409306332120 (USD)
Intermediary Bank:Commerzbank AG, Frankfurt am Main
S.W.I.F.T: COBADEFF
ACC # 400 88 660 3001
Beneficiary Bank: The International Bank of Azerbaijan Republic " Customer Service Department
SWIFT: İBAZAZ2X
Beneficiary: State Oil Company of Azerbaijan Republic
TAX İD: 9900003871
Account No: AZ08IBAZ38110019789306332120 (EUR)

İŞTİRAK HAQQI HEÇ BİR HALDA GERİ QAYTARILMIR.

***IV. Bank təminatı:***
* İddiaçının təqdim etməli olduğu müsabiqə təklifinin təminatı müsabiqə təklifinin ümumi qiymətinin 1 (bir) %-dək məbləğdən aşağı
* Avans ödənişin təminatının məbləği ən azı ödəniləcək avans məbləğinə bərabər olmalıdır.
* Müqavilənin yerinə yetirilməsi təminatı satınalma müqaviləsinin qiymətinin 5% məbləğində müəyyənləşdirilir.

***V. Müqavilənin icra müddəti:***
Satınalma müqaviləsinin 2 ay ərzində yerinə yetirilməsi tələb olunur.

***VI. Satınalan təşkilatın ünvanı:***
AZ1060, Bakı şəhəri, Nizami rayonu,
O.Vəliyev küçəsi 1, 3-cü inzibati bina
**Əlaqələndirici şəxs:**
Quliyeva Sona, Maddi-texniki təchizat şöbəsinin mühəndisi
+994 12 521 00 00 Daxili: 17998
+994 12 521-23-51.
Sona.Guliyeva@socar.az

***VII. Elanın, satınalma predmeti haqqında geniş məlumatın və əsas şərtlər toplusunun əldə edilməsi üçün müraciət formasının yerləşdirildiyi internet ünvan:***
www.socar.az (http://www.socar.az/socar/az/company/procurement-supply-chain-management/procurement-notices)

***VIII. Müsabiqə təklif zərflərinin açılışı tarixi, vaxtı və yeri:***
Zərflərin açılışı 15 iyul 2019-cu il tarixdə, Bakı vaxtı ilə saat 15:00-da elanın V qrafasında göstərilmiş Satınalan təşkilatın ünvanında baş tutacaqdır.

***IX. Müsabiqənin nəticəsi haqqında məlumat:***
Müsabiqənin yekun nəticəsi haqqında məlumat aşağıdakı internet linkdən əldə ediləbiləcək:
http://www.socar.az/socar/az/company/procurement-supply-chain-management/contract-awards

**SOCAR-ın Satınalmalar Komitəsi**



Azərbaycan Respublikası Dövlət Neft Şirkətinin (SOCAR)

## Neft Kəmərləri İdarəsi

**Avadanlıq və mal-materiallara olan tələbatını təmin etmək məqsədi ilə açıq satınalma müsabiqəsi (13006-19) elan edir.**

***I. Müsabiqədə iştirak etmək üçün təqdim edilməli sənədlər:***
* Müsabiqədə iştirak haqqında müraciət;
* İştirak haqqının ödənilməsi barədə bank sənədi;
* Müsabiqə təklifi.

Müsabiqədə iştirak haqqında müraciət (imzalanmış və möhürlənmiş) və iştirak haqqının ödənilməsi barədə bank sənədi ən geci 08.07.2019-cu il (ən geci müsabiqə təkliflərinin təqdim olunmasının son tarixindən 7 iş günü əvvəl), Bakı vaxtı ilə saat 17:30-a qədər Azərbaycan, rus və ya ingilis dilində Satınalan təşkilatın elanda göstərilmiş ünvanında təqdim olunmalıdır.

Tələb olunan sənədlərin surətləri (müsabiqə təklifi istisna olmaqla) Satınalan təşkilatın əlaqələndirici şəxsinin elanda göstərilmiş elektron ünvanına göndərilə bilər. Belə halda sənədlərin əsli müsabiqə təkliflərinin təqdim edilməsinin son gününədək Satınalan təşkilata təqdim edilməlidir.

***II. Müsabiqə təklifinin təqdim edilməsinin son tarixi və vaxtı:***
* Müsabiqə təklifləri bir əsli və iki surəti olmaqla 15.07.2019-cu il, Bakı vaxtı ilə saat 10:30-a qədər Satınalan təşkilata təqdim olunmalıdır.
* Göstərilən tarixdən və vaxtdan sonra təqdim olunan təklif zərfləri açılmadan geri qaytarılacaqdır.

***III. İştirak haqqı və əsas şərtlər toplusunun əldə edilməsi:***
* Müsabiqənin əsas şərtlər toplusunu Azərbaycan, rus və ya ingilis dilində əldə etmək istəyənlər 118 manat (ƏDV daxil), və ya ekvivalent məbləğdə sərbəst dönərli valyuta ilə iştirak haqqını qeyd olunan hesaba ödədikdən sonra elektron və ya çap formasında əlaqələndirici şəxsdən elanın I qrafasında göstərilmiş tarixədək həftənin istənilən iş günü saat 09:30-dan 17:30-a kimi ala bilərlər.

Hesab nömrəsi:
Azərbaycan Beynəlxalq Bankı ASC,
AZ38IBAZ38010019449306332120,
VÖEN: 9900003871,
Müştəri Xidməti Departamenti,
Kod: 805250,
Müxbir hesab: AZ03NABZ01350100000000002944,
VÖEN: 9900001881,
SWIFT BIK: İBAZAZ2X

İŞTİRAK HAQQI HEÇ BİR HALDA GERİ QAYTARILMIR.

***IV. Müqavilənin icra müddəti:***
* Satınalma müqaviləsinin 90 təqvim günü müddətinə yerinə yetirilməsi tələb olunur.

***V. Satınalan təşkilatın ünvanı:***
AZ1025; Bakı şəhəri; Xətai rayonu; Xocalı pr 28;
**Əlaqələndirici şəxs:**
İsmayılzadə Rövşən Yaşar oğlu.
Neft Kəmərləri İdarəsi Satınalmalar şöbəsinin Böyük mühəndisi
+994125210000 (daxili 13035)
+994125210000 (daxili 13036) (faks)
+994508413035 (mobil)
Rovshan.Ismayilzade@socar.az

***VI. Elanın, satınalma predmeti haqqında geniş məlumatın və əsas şərtlər toplusunun əldə edilməsi üçün müraciət formasının yerləşdirildiyi internet ünvan:***
www.socar.az (http://www.socar.az/socar/az/company/procurement-supply-chain-management/procurement-notices)

***VII. Müsabiqə təklif zərflərinin açılışı tarixi, vaxtı və yeri:***
Zərflərin açılışı 15.07.2019-cu il tarixdə, Bakı vaxtı ilə saat 11:00-da, elanın V qrafasında göstərilmiş Satınalan təşkilatın ünvanında baş tutacaqdır.

***VIII. Müsabiqənin nəticəsi haqqında məlumat:***
Müsabiqənin yekun nəticəsi haqqında məlumat aşağıdakı internet linkdən əldə ediləbiləcək:
http://www.socar.az/socar/az/company/procurement-supply-chain-management/contract-awards

**Neft Kəmərləri İdarəsinin Satınalmalar qrupu**

iki sahil
VAHİD AZƏRBAYCAN UĞRUNDA!
Son səhifə
www.ikisahil.az / www.ikisahil.tv
GÜNDƏLİK İCTİMAİ-SİYASİ QƏZET
№ 106 (7361) / Cümə, 14 iyun 2019-cu il



# Kremlər bizi günəşdən qoruyurmu?

**Qızmar yay aylarında günəş kremi istifadə etməyin çox vacib olduğunu artıq hamımız bilirik. Ancaq bu mövzuda insanları maraqlandıran bir çox suallar var. Hansı qoruyucu kremdən nə vaxt və nə qədər istifadə etmək olar və s.**

Günəşin faydaları saymaqla bitmir, ancaq günəş yanıqları dəri xərçənginin yaranması, işıq səbəbi ilə yaranan allergik xəstəliklər və dərinin vaxtından əvvəl qocalması riskini də unutmamaq lazımdır. Müdafiəsiz günəşə məruzqalma, dəri xərçəngi üçün qarşısı alınan risk faktorlarından biridir. Xüsusilə, uşaqlıq və yeniyetməlik dövrlərində yaranan günəş yanıqları gələcəkdə meydana gələ biləcək dəri xərçəngi baxımından çox risklidir. Bundan əlavə, günəş işığının nəzarətsiz və şüursuz təsirləri zamansız dəri qocalmasına, ləkələrə və allergiyaya səbəb ola bilər. Buna görə də günəşdən qorunma vərdişlərinə yiyələnmək vacibdir.

**Günəş kremindən kimlər istifadə etməlidir?**

Hər kəs günəşdən qorunmalıdır. Günəş kremi dərini günəşin zərərli ultrabənövşəyi şüalarından qoruyaraq dəri xərçənginə yoluxmanın qarşısını alır.

**Hansı günəş qoruyucusundan istifadə edilməlidir?**

* UVA və UVB şüalarına qarşı geniş spektrli qoruma olmalıdır.

* Suya davamlı olmalıdır.

* Krem 30 dəqiqə əvvəl quru dəriyə çəkilməlidir.

* Çöldə olduqda, hər iki saatdan bir tətbiq edin, üzdükdən və ya tərləmədən dərhal sonra yenidən istifadə edin. Günəşdən qoruyucu kremin faktoru 30 və ya daha yüksək olmalıdır.



**Günəşdən qoruyucunu nə vaxt istifadə etmək olar?**

Evdən çölə çıxdığımız hər gün istifadə etməliyik. Günəş il ərzində zərərli UV şüaları yayır. Buludlu günlərdə belə günəşin zərərli UV şüalarının 80 faizə qədəri dərinizə nüfuz edə bilər. Qar, qum və su günəş işığı ehtiyacını artırır, çünki günəş işığını əks etdirir.

İstifadə etdiyiniz günəş kremi növü şəxsi seçiminizdir və qorunmaq üçün bədən sahəsi və dəri problemlərinə (dəri tipi, problemlər və s.) görə dəyişə bilər. Mövcud günəş kremi variantları losionlar, kremlər, gel, məlhəm və spreylərdir.

Həssas dəri və körpələr üçün də xüsusi günəşdən qoruyucu məhsullar var. Bəzi günəşdən qoruyucu məhsullar nəmləndiricilər və kosmetika ilə birlikdə istifadə edilə bilər.

**Günəşdən qoruyan vasitələr D vitamini qəbuluna mane olurmu?**

Günəş kremi istifadə edərək dərinin vitamin D istehsalını azalda bilərsiniz. Əgər kifayət qədər D vitamini almadığınızı düşünürsünüzsə, variantlar haqqında həkiminizlə məsləhətləşə bilərsiniz. Bir çox insanlar qidalardan və ya vitamin əlavələri vasitəsilə ehtiyacı olan D vitamini ala bilirlər. Bu yanaşma, dəri xərçəngi riskini artırmadan sizi lazım olan D vitamini ilə təmin edir.

**Bunları unutmayın!**

Ayaqlarınızın üstü, boyun, qulaqlarınız və başınızın üstünə tətbiq etməyi unutmayın.

Dəri xərçəngi dodaqlarda da meydana gələ bilər. Dodaqlarınızı qorumaq üçün 30 və ya daha yüksək SPF-li dodaq balzamı və ya pomada tətbiq edin.

**Röya Rasimqızı,**
***"İki sahil"***

# "Real" transfer rekordunu yenilədi




Son olaraq "Lion"dan Ferland Mendini heyətinə qatan "Real" transferdə klub rekordunu yeniləyib.

Milli.Az xəbər verir ki, bu barədə İspaniya mətbuatı məlumat yayıb.

"Real" yay transfer pəncərəsi dövründə "Lion"dan Ferlan Mendini (48 milyon), "Çelsi"dən Eden Hazardı (100), "Ayntraxt"dan Luka Yoviçi (60), "Portu"dan Eder Militanonu (50) və "Santos"dan Rodriqonu (45) heyətinə qatıb. "Real" bu transferlər üçün ümumilikdə 303 milyon avro xərcləyib. Bu, "Real"ın klub tarixində bir transfer pəncərəsində futbolçulara xərclədiyi ən yüksək məbləğdir.

"Real" bununla da, 10 il əvvəlki şəxsi rekordunu yeniləyib. 2009-cu ilin yayında "kral klub"u Kriştiano Ronaldo, Kaka, Xabi Alonso, Kərim Benzema, Raul Albiol, Alvaro Neqredo, Alvaro Arbeloa və Esteban Qranero üçün ümumilikdə 258,5 milyon avro xərcləmişdi.

**ELAN:**

***Naibov Əmrah Seyfəddin oğluna məxsus (Naibov Amrakh) istehsal tarixi 2004-cü il, EM 200 IN nömrəsi ilə Gürcüstan qeydiyyatında olan Opel Astra (qara) markalı avtomobilin texniki pasportu itdiyi üçün etibarsız sayılır.***

## ALLAH RƏHMƏT ELƏSİN!

SOCAR-ın Baş ofisinin kollektivi və Həmkarlar İttifaqı Komitəsi Mühasibat uçotunun metodologiyası şöbəsinin aparıcı iqtisadçısı
**Cəlalə Cəlal qızı Qurbanovanın**
vəfatından kədərləndiklərini bildirir, mərhumun ailəsinə və yaxınlarına dərin hüznlə başsağlığı verirlər.

SOCAR-ın "Qaz İxrac" İdarəsinin rəhbərliyi, Həmkarlar İttifaqı Komitəsi və əmək kollektivi SOCAR-ın Baş ofisinin İctimaiyyətlə əlaqələr və tədbirlərin təşkili idarəsinin rəis müavini Fuad Əhmədova, anası
**Sədəfxanım Əhmədovanın**
vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

SOCAR-ın Neft Kəmərləri İdarəsinin rəhbərliyi, Həmkarlar İttifaqı Komitəsi və əmək kollektivi Məxfi rejim və hərbi səfərbərlik şöbəsinin rəisi Səidə Abdullayevaya, bacısı
**Fəridə xanımın**
vaxtsız vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

SOCAR-ın Təlim, Tədris və Sertifikatlaşdırma İdarəsinin rəisi Fuad Süleymanov, Həmkarlar İttifaqı Komitəsi və əmək kollektivi SOCAR-ın Baş ofisinin İctimaiyyətlə əlaqələr və tədbirlərin təşkili idarəsinin rəis müavini Fuad Əhmədova, anası
**Sədəfxanım Əhmədovanın**
vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

SOCAR-ın "Azəriqaz" İB-nin rəhbərliyi, Həmkarlar İttifaqı Komitəsi və əmək kollektivi SOCAR-ın Baş ofisinin İctimaiyyətlə əlaqələr və tədbirlərin təşkili idarəsinin rəis müavini Fuad Əhmədova, anası
**Sədəfxanım Əhmədovanın**
vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

SOCAR-ın "Neftqazelmitədqiqatlayihə" İnstitutunun rəhbərliyi, Həmkarlar İttifaqı Komitəsi və əmək kollektivi SOCAR-ın Baş ofisinin İctimaiyyətlə əlaqələr və tədbirlərin təşkili idarəsinin rəis müavini Fuad Əhmədova, anası
**Sədəfxanım Əhmədovanın**
vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

SOCAR-ın "Azneft" İB-nin "Qaz Anbarlarının İstismarı" İdarəsinin rəhbərliyi, Həmkarlar İttifaqı Komitəsi və əmək kollektivi SOCAR-ın Baş ofisinin İctimaiyyətlə əlaqələr və tədbirlərin təşkili idarəsinin rəis müavini Fuad Əhmədova, anası
**Sədəfxanım Əhmədovanın**
vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

SOCAR-ın "Azneft" İB-nin Ə.C.Əmirov adına NQÇİ-nin rəhbərliyi, Həmkarlar İttifaqı Komitəsi və əmək kollektivi İdarənin İqtisadiyyat və uçot şöbəsinin baş mühasibinin müavini Solmaz Zeynalovaya, atası
**Babamir Zeynalovun**
vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

TƏSİSÇİ:
SOCAR

Baş redaktor:
**Vüqar RƏHİMZADƏ**
Baş redaktorun I müavini:
**İsmayıl HACIYEV**

Bakı: Kapital Bankın 1 saylı Xətai filialı H/hesab
№AZ19AIIB380300194437 00306107
**Kod №** 200071
**VÖEN:** 2000157291

**TELEFONLAR:**
*Qəbul otağı:* 530-26-46, 430-87-97
*Baş redaktorun I müavini:* 530-26-36
*FAX:* 430-87-47
*Mühasibatlıq:* 430-87-27
*e-mail:* ikisahil@azdata.net

**Ünvan:**
AZ1012 Bakı, H.Zərdabi prospekti-88

Qəzetdə *"AZƏRTAC", "OLAYLAR", "Azadİnform", "TREND", SİA, İnterFAX* informasiya agentliklərinin məlumatlarından istifadə olunub.

Müəlliflərlə redaksiyanın mövqeyi uyğun gəlməyə bilər.

Qəzet "İKİ SAHİL"in kompyuter mərkəzində yığılır və "AZƏRBAYCAN" nəşriyyatında ofset üsulu ilə çap olunur.
Çapa imzalanıb:
14.06.2019-cu il saat 01:00
*Qiyməti:* **40 qəpik**, *Sayı:* **8215**
*İndeks:* **0151**, *Sifariş:* **1938**